www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 noyabr 2023-cü il Cümə axşamı № 210 (8346) Qiyməti 60 qəpik

## Xəbər

**Sənəd verilməyəcək evlər söküləcəkmi - rəy**

yazısı səh.3-də

## Gündəm

**Azərbaycan-İraq əlaqələrində yeni mərhələ - perspektiv planlar və ...**



Prezident Əliyev Camal Rəşidlə görüşdə Fransa ilə bağlı bəyanatları təsadüfən səsləndirməyib

yazısı səh.5-də

**USAİD direktorundan saxtakarlıq - məcburi köçkünləri bir dəfə ziyarət etmədi, amma...**

yazısı səh.7-də

**Zatulin: "2021-də erməni müxalifəti Paşinyanı devirmək üçün Rusiyadan dəstək istəyib"**

yazısı səh.6-da

**Deputatdan ikidən artıq uşaqlı ailələrə güzəşt təklifi - reaksiyalar**

yazısı səh.13-də

**Suriyadan qaytarılan vətəndaşlar potensial terrorçu ola bilərmi - rəy**

yazısı səh.12-də

**Pambıq yığımında kəskin azalma - naməlum xəstəlik, yağış...**

yazısı səh.14-də

**Paytaxtda bu mənzillərə tələb azalıb**

yazısı səh.3-də

**Ölkə sərt qışa necə hazırlaşır - rəsmi açıqlamalar**

yazısı səh.4-də

**Boşanma qərarına gətirən amillər öyrənilib - ilginc rəylər**

yazısı səh.15-də

**Bakıda güclü külək əsəcək**

yazısı səh.2-də

**Müəllimlərə elektron formada sertifikat veriləcək**

yazısı səh.2-də

# SÜLH DANIŞIQLARI ÜÇÜN OPTİMAL MƏKAN VƏ ŞƏRT - SƏRHƏDDƏ, İKİTƏRƏFLİ...

Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün hər hansı əngəl olmadığını bəyan etdi; İrəvan özündə cəsarət tapacaqmı?



yazısı səh.9-da

# Xəzərin dibi ilə elektrik kabeli çəkiləcək - mühüm proje

Üç türk dövlətinin ilginc planı; **İlham Şaban:** "Bu, çox real layihədir"

yazısı səh.10-da



*Zaxarova:*

**"İrəvanın Qərbdən kömək gözləməsi fiaskoya uğrayıb"**

yazısı səh.2-də



Hikmət Babaoğlu

*Deputat:*

**"ABŞ və Fransanın 30 il ərzində siyasəti nə idisə, bu gün də odur, lakin Azərbaycan dəyişib, güclənib"**

yazısı səh.6-da



**Ərdoğandan Fələstin çağırışı - tək yol...**

yazısı səh.8-də




## Leo Dokerti: "Britaniya Cənubi Qafqazda davamlı sülhü dəstəkləyir"

**"Yenidən Bakıda olmağa şadam".**

APA xəbər verir ki, bunu Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokerti "X" platformasında deyib.

"Azərbaycan Prezidenti İlham Əliyevlə regional təhlükəsizlik məsələlərini müzakirə etmək imkanım oldu. Böyük Britaniya Cənubi Qafqazda davamlı sülhü dəstəkləyir - hamı bundan faydalana bilər", - o bildirib.




## Çin və ABŞ liderləri G20-nin iclasına qatılmayacaq

**G20 liderlərinin virtual formatda iclası keçiriləcək, Rusiya prezidenti Vladimir Putin çıxış edəcək.**

APA "Bloomberg"ə istinadən xəbər verir ki, bu barədə Hindistanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, baş nazir Narendra Modi bu gün G20 liderlərinin virtual görüşünə ev sahibliyi edəcək. İclasa Çin lideri Si Cinpin və ABŞ prezidenti Co Bayden qatılmayacaq.

Çin Xarici İşlər Nazirliyi bildirib ki, ölkəni baş nazir Li Qianq iclasda təmsil edəcək.

Kreml də Rusiya Prezidenti Vladimir Putinin iclasa qatılacağını və çıxış edəcəyini bildirib.

## Bakıda güclü külək əsəcək

**Noyabrın 23-də Bakıda və Abşeron yarımadasında cənub-qərb küləyinin 15-20 m/s, arabir 23-25 m/s, günün ikinci yarısından 24-dək isə şimal-qərb küləyinin 15-20 m/s, arabir 23-28 m/s, yarımadanın bəzi yerlərində arabir 30 m/s-dək güclənəcəyi gözlənilir.**

Bu barədə Musavat.com-a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Azərbaycanın rayonlarında isə noyabrın 23-24-də qərb küləyinin 15-20 m/s, arabir 23-25 m/s, 23-də ayrı-ayrı yerlərdə arabir 28-30 m/s-dək güclənəcəyi gözlənilir.

# Zaxarova: "İrəvanın Qərbdən kömək gözləməsi fiaskoya uğrayıb"



**İrəvanın Qərbdən kömək gözləməsi fiaskoya uğrayıb. APA xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova brifinq zamanı deyib.**

Zaxarova qeyd edib ki, cari ilin sentyabr, oktyabr və noyabr aylarında Ermənistan həm Moskvada, həm də çoxtərəfli tədbirlər çərçivəsində danışıqlar aparmağa dəvət olunub, Rusiya hələ də bu təklifə tam aydın cavab almayıb.

XİN rəsmisi vurğulayıb ki, rəsmi İrəvan Bakı ilə sülh müqaviləsi üzrə danışıqların Vaşinqtonda, Brüsseldə keçirilməsinə can atır.

Onun fikrincə, ABŞ və Avropa İttifaqı bir sıra məlum səbəblərə görə vicdanlı vasitəçi sayıla bilməz. Onların məqsədi Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaqdır və hərəkətləri buna xidmət edir.

"Ermənistana göndərilən təkliflərə baxanda bu, göz qabağındadır - danışıqlar hələ də dondurulub", - deyə Zaxarova bildirib.

Rusiya XİN sözçüsü həmçinin əlavə edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) hazırkı şəraitdə regional sabitliyin təmin edilməsi baxımından mühüm rol oynamağa qadirdir.

Zaxarovanın sözlərinə görə, təşkilatın monitorinq missiyasının Ermənistan-Azərbaycan sərhədində yerləşdirilməsi Aİ missiyasından fərqli olaraq Ermənistanın təhlükəsizliyinin təmin edilməsində mühüm amilə çevrilə bilər.

**O deyib ki, Ermənistan xarici siyasət vektorunu kəskin dəyişmək niyyətin büruzə verir:** "Ermənistanın xarici vektorunu dəyişmədən siyasi xəttinin şaxələndirilməsi ilə bağlı bəyanatları əsl niyyətləri gizlətmək cəhdidir. Aydındır ki, söhbət respublikanın xarici siyasətdə oriyentasiyasında köklü dəyişiklikdən gedir. Bu isə çox aydın şəkildə, Qərbin təklifi və ya tələqini ilə həyata keçirilir. Digər tərəfdən, onlar bu yolla həm yardımın, həm də xüsusi münasibətlərin əvvəlki səviyyəsini qoruyub saxlaya biləcəklərinə inanaraq, hər cür yolla bunu kamuflyaj etməyə çalışırlar".

# Şadlıq saraylarında sifarişlər kəskin artıb

**2023-cü ilin oktyabr ayında şadlıq saraylarında sifarişlərin sayı 47.5 faiz artıb.**



Musavat.com "Trend"ə istinadən xəbər verir ki, bu barədə İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) bildirilib.

Qeyd edilib ki, sifarişlərin sayında artım məhərrəmlik ayından sonra artan tələblə bağlıdır.

Eyni zamanda şadlıq saraylarında oktyabr ayında qiymətlər 8.2 faiz artıb. Xüsusən 40 manatadək olan menyularda qiyməti daha çox artıb: 10.3 faiz. Qiyməti 40-80 faiz olan menyuların qiyməti 7.8 faiz yüksəlib. Dəyəri 100 manatdan çox olan menyuların qiymətində də 6.3 faiz artım qeydə alınıb.

Qeyd edək ki, 2023-cü ilin yanvar-oktyabr aylarında istehlak qiymətləri indeksi 2022-ci ilin yanvar-oktyabr aylarına nisbətən 110,2 faiz, o cümlədən, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 111,4 faiz, qeyri-ərzaq məhsulları üzrə 109,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 109,1 faiz təşkil edib.

2023-cü ilin oktyabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,4 faiz, əvvəlki ilin oktyabr ayına nisbətən 103,9 faiz təşkil edib.



## Xankəndiyə hansı məcburi köçkünlərin köçürüləcəyi məlum oldu

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ərazisi işğaldan azad olunmuş müxtəlif rayonlardan olan məcburi köçkünlərdən Xankəndiyə köçməklə bağlı çoxsaylı müraciətlər gəlir.**

Bu barədə Musavat.com-a qurumdan məlumat verilib.

Bildirilib ki, ərazisi işğaldan azad olunmuş ərazilərdə, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində, bərpa edilən və yenidən tikilən yaşayış məntəqələrinə köçürülmə aparılır:

"Bu zaman məcburi köçkünlər yalnız qeydiyyatda olduqları şəhər, rayon, kənd və qəsəbə üzrə daimi yaşayış sahəsi ilə təmin edilirlər.

Buna uyğun olaraq, Xankəndi şəhərinə də həmin ərazidən olan məcburi köçkünlərin köçürülməsi nəzərdə tutulur", - Dövlət Komitəsindən vurğulanıb.



## Müəllimlərə elektron formada sertifikat veriləcək

**Sertifikatlaşdırmadan keçən müəllimlərə elektron formada sertifikat veriləcək.**

Musavat.com xəbər verir ki, bununla bağlı baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərara əsasən, sertifikatlaşdırmadan keçmiş təhsilverənlərə "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq elektron sənəd formasında yaradılan sertifikat veriləcək. Sertifikat sertifikatlaşdırmanın nəticələri elan olunduqdan sonra 5 (beş) iş günü müddətində hazırlanacaq.

Sertifikatda bütün məlumatlar Azərbaycan dilində yazılacaq.

# Sənəd verilməyəcək evlər söküləcəkmi - məsuliyyət və kompensasiya məsələsi...

## Ekspert: "10 minlərlə evin olduğu yaşayış massivi yaranıbsa, burada söhbət təkcə vətəndaş məsuliyyətsizliyindən gedə bilməz"

**Uzun illərdir əsas problemlərdən biri kimi gündəmdə olan sənədsiz evlərlə bağlı məsələ hələ də öz həllini tapmayıb. Respublika üzrə qanunsuz tikililərin çox hissəsi Bakı və Abşeron yarımadasının payına düşür.**

Musavat.com xəbər verir ki, ARB TV-nin efirində yayımlanan "Günə Son" verilişində sənədsiz evlərin taleyi ilə bağlı müzakirələr aparılıb.

**Abşeron Rayon İcra Hakimiyyətinin şöbə müdiri Azər Məmmədov bu barədə açıqlama verib:** "Bir neçə il bundan qabaq sənədsiz evlərin siyahıya alınması ilə bağlı tapşırıq gəlmişdi, siyahını hazırlayıb Əmlak Məsələləri Dövlət Xidmətinə təhvil vermişik. Pandemiyadan əvvəlki dövrdə təxminən iyirmi altı, iyirmi yeddi minə yaxın sənədsiz ev vardı. Təsəvvür edin ki, Abşeron rayonunda iki yüz on beş min qeydiyyatda olan əhali var, lakin yeddi yüz minə yaxın insan yaşayır. Yüksək gərginlikli elektrik xətlərinin, qaz, işıq, su, dəmiryol xətlərinin və vulkanların mühafizə zolaqlarında yerləşən evlərə birmənalı olaraq, sənəd verilməyəcək".



Qeyd edək ki, hazırda sənədsiz qeyri-yaşayış obyektlərinin sənədləşdirilməsi prosesi gedir. Növbəti mərhələdə evlərlə bağlı oxşar addım atılacağı bildirilir. İcra hakimiyyəti rəsmisinin də sözlərindən bəlli olur ki, mühafizə zolaqlarında inşa edilən fərdi evlərə heç bir halda sənəd verilməyəcək.

Xatırladaq ki, oktyabr ayının 1-dən Şəhərsalma və Tikinti Məcəlləsinə bir sıra düzəlişlər edilib. Dəyişikliyə əsasən, tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan və s. obyektlərin kommunal xidmətlərə qoşulması qadağandır.

**Əmlak eksperti Elnur Fərzəliyev "Yeni Müsavat" a bildirdi ki, çıxarış verilməyən evlərin hamısı təhlükəli ərazilərdə yerləşmir. Ekspertin fikrincə, ilk növbədə qadağan edilməyən ərazilərdə inşa edilən evlərə çıxarışlar verilməlidir:** "Vətəndaşların kütləvi köçürülməsi prosesi başlasa, kompensasiyalar ödəniləcək. Bunun üçün qiymətləndirilmə aparılmalıdır. Məsələn, kommunal xətlərin yerinin dəyişdirilməsi daha ucuz olar, ya yaşayış massivlərinin sökülməsi? Bunu müəyyən etdikdən sonra qərar verilməlidir. Hələ ki monitorinq aparılmayıb. Reallıq budur ki, vəziyyətin yaxşılaşması üçün addım atılmayıb. Əgər evlərin sayı azdırsa, hər hansı məsuliyyətdən söhbət gedə bilər. Lakin 10 minlərlə evin olduğu yaşayış massivi yaranıbsa, burada söhbət təkcə vətəndaş məsuliyyətsizliyindən gedə bilməz. Müvafiq dövlət qurumlarının məsuliyyətini gözardı etmək olmaz. Yaşamaq hüququ formalaşmış vətəndaşlara ya kompensasiya ödəyərək köçürmək, yaxud təhlükə törədə biləcək xətlərin dəyişdirilməsi barədə düşünmək olar. Təbii ki, elə ərazilər var ki, təbii proseslərlə əlaqədar torpağın təyinatını dəyişmək mümkün deyil. Nəzərə almaq lazımdır ki, Bakıda əkin əkilməsi, heyvandarlıq sahələrinin yaradılması real deyil. Vaxtilə kolxozlar, sovxozlar var idi. Onlar ləğv olunduğuna görə torpaqların təyinatı dəyişməlidir".

**E.Fərzəliyev qeyd etdi ki, yaşamaq hüququ formalaşmış vətəndaşın evi yalnız kompensasiya ödəndikdən sonra sökülə bilər:** "Hələ ki təcrübədə evi sökülən vətəndaşa kompensasiya ödənməməsi halı olmayıb. Dövlət əhəmiyyətli tikinti aparılanda, o cümlədəm zəlzələ və s. təbii hadisələr nəticəsində vətəndaşa dəyən zərər ödənir".

**Əmlak məsələləri üzrə ekspert Elnur Azadov isə qeyd etdi ki, qanunsuz inşa edilən evlərə amnistiya veriləcək. Ekspert həmçinin qeyd etdi ki, Ədliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti daşınmaz əmlakla bağlı əməliyyatların aparılması üçün vahid portal yaradılacaq:** "Qanunsuz evlərin qeydiyyata alınması ilə bağlı müraciətlər bu portal vasitəsilə qəbul ediləcək. Hazırlıq prosesi başlayıb, portalın 2024-cü ildə istifadəyə verilməsi gözlənilir. Qanunvericiliklə icazə verilməyən ərazilərdə inşa edilən evlərə sənəd verilməyəcək. Lakin ev, məsələn, dəmir yolunun yaxınlığında tikilibsə, məsuliyyət Azərbaycan Dəmir Yolları QSC-nin üzərinə düşür. Bu halda kompensasiyanın dövlət yaxud dövlət qurumu (məsələn, ADY QSC) tərəfindən ödənməsi hələ ki açıq sualdır. Kommunikasiya xətləri ilə bağlı problemlər isə icra və bələdiyyələrin öhdəliyinə düşür. O ki qaldı kompensasiyanın ödənməsinə, hesab edirəm ki, dövlət 50-100 min sənədsiz ev sahibinə kompensasiya ödəməyəcək. Cavabdehliyi birbaşa əlaqəli qurum daşımalıdır".

**İqtisadçı ekspert Natiq Cəfərli isə vurğuladı ki, ölkədə tikintiyə nəzarət öhdəliyi olan 14 dövlət orqanı var. Ekspert diqqətə çatdırdı ki, Avropa Məhkəməsinin əmsal qərarına əsasən, əhali yaşadığı yerdə kommunal xidmətlərə görə aylıq ödənişlər edirsə, bu, mülkiyyət hüququ yaradır**: "Vətəndaşlar illərlə qaz, işıq, su pulu ödəyirsə, bu onların əmlak hüququnun tanınması deməkdir. Mülkiyyət hüququ yaranan vətəndaşın evi söküləcəksə, kompensasiya tələb etmək haqqı yaranır. Düşünürəm ki, qeyri-qanuni tikililər məsələsində bütün məsuliyyət vətəndaşın üzərində qala bilməz. Bu, məntiqli deyil. Vətəndaşın da məsuliyyəti var, amma əsas məsələ dövlət orqanlarının bu məsələyə göz yummasıdır. Bu səbəblər aradan qaldırılmalıdır".

**Millət vəkili Vüqar Bayramov "Yeni Müsavat" a açıqlamasında bildirdi ki, sənədsiz evlərin qeydiyyata alınması ilə bağlı hökumət tərəfindən proses sürətlənib. Millət vəkili diqqətə çatdırdı ki, əsas məsələ təhlükəli zonada yerləşən evlərin sənədləşdirilməsidir:** "Nəzərə almaq lazımdır ki, sənədsiz evlərin bir qismi kifayət qədər riskli bölgələrdə yerləşir. Bəzi evlər neft buruqlarının yaxınlığında, bəziləri yüksək gərginlikli elektrik xətlərinin altında, yaxud nəqliyyat qovşaqlarının yaxınlığında inşa edilib. Hələ ki bu evlərin taleyi ilə bağlı müzakirələr davam edir. Təklifimiz ondan ibarətdir ki, müəyyən kommunal xətləri başqa istiqamətdə yer altından çəkmək mümkündürsə, üzərində yerləşən evlərə sənəd verilməsi məqsədəmüvafiq olardı. Elə evlər də var ki, pay torpağı üzərində inşa edilib. Əgər torpağın statusunu dəyişmək mümkündürsə, evləri sənədləşdirməyi nəzərdən keçirmək olar. Bu istiqamətdə müzakirələr gedir. Düşünürəm ki, müzakirələrdə əsas istiqamət vətəndaşlarımızın hüquqlarının qorunması istiqamətində olmalıdır".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

# 93 min manat rüşvət alan sabiq baş memara ağır cəza

**Lənkəran Rayon İcra Hakimiyyəti başçısı Aparatının Memarlıq və Tikinti şöbəsinin sabiq müdiri - baş memar Elgün Abdullayevin cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb.**

Pravda.az xəbər verir ki, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi Elxan Süleymanovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmənin hökmü ilə ona 8 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilib.

Qeyd edək ki, Lənkəran Rayon İcra Hakimiyyəti başçısı Aparatının Memarlıq və Tikinti şöbəsinin sabiq müdiri - baş memar Elgün Abdullayev ötən ilin oktyabr ayında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həbs edilib.



Elgün Abdullayev

Əməliyyat tədbirləri ilə Elgün Abdullayevin qeyd olunan vəzifədə işləyərkən rayon ərazisində yerləşən torpaq sahələri üzərində tikilmiş fərdi yaşayış evi və qeyri-yaşayış sahələri ilə bağlı sənədləşmənin aparılmasına, eləcə də həmin sahələrin layihələrinin rəhbərlik etdiyi şöbədə təsdiq edilməsi üçün ona müraciət etmiş ayrı-ayrı vətəndaşlardan müxtəlif məbləğlərdə rüşvət tələb edərək almasına dair əsaslı şübhələr müəyyən edilib.

İttihama görə, o, 93 350 manat rüşvət alıb.

Elgün Abdullayev Cinayət Məcəlləsinin 311.3.2 və 311.3.3-cü (külli miqdarda təkrarən rüşvət alma) maddələri ilə ittiham olunur və özünü ittihamlar üzrə təqsirli bilmir.



# Bakıda bu mənzillərə tələb azalıb

**Bakıda mənzil bazarında son vəziyyət açıqlanıb.**

İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) "Trend"ə verilən məlumata görə, mənzil bazarında qiymət artımları müşahidə olunub.

Oktyabr ayında bağ evlərinə tələb azalsa da, fərdi həyət evlərinə tələbin artması müşahidə olunub. Fərdi evlərdə və torpaq sahələrində əvvəlki aya nisbətən 1.3 faiz qiymət artımı qeydə alınıb.

Yaşayış binalarında və qeyri-yaşayış sahələrinə tələb yenə də stabildir. Yaşayış binalarında olan mənzillərdə 0.9 faiz aylıq qiymət artımları müşahidə olunub. Qeyri-yaşayış sahələrində 1.4 faiz aylıq qiymət artımı qeydə alınıb. Kirayə bazarında qiymətlər dəyişməyib.

YENİ MÜSAVAT
N 210 (8346) 23 noyabr 2023

# Oliqarx övladlarının məhkəməsi bu gün davam edəcək

## "Sea Breeze"dəki kütləvi davanın tərəfləri kimlərdir?

**Bu gün, noyabrın 23-də Sabunçu Rayon Məhkəməsində hakim Mirheydər Zeynalovun sədrliyi ilə oliqarx övladlarının cinayət dosyesi üzrə araşdırmalar davam etdiriləcək. Məhkəmə qarşısına 4 nəfər - Peyman Rəhman oğlu Vəlizadə, Elmir Üzeyir oğlu İsmayılov, Məhəmməd Natiq oğlu Həsənzadə və Murad Məzahir oğlu Əhmədli çıxarılıblar. Bu şəxslər xuliqanlıqda ittiham olunurlar. Müttəhimlər bu ilin yayında "Sea Breeze"də kütləvi dava tərəfi olublar. İş üzrə iki zərərçəkən var - Cavad Vahid oğlu Muradov və Elnur Leysan oğlu Məmmədov.**



Bu ilin yayında baş verən hadisə ilə bağlı həmin zaman yayılan rəsmi məlumatda qeyd olunurdu ki, iyunun 12-də "Sea Breeze Resort" istirahət mərkəzində kütləvi dava baş verib. 1 gün sonra xuliqanlıq hərəkətləri törədən şəxslər müəyyən olunub. Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsində faktla bağlı Cinayət Məcəlləsinin 221.3-cü (xuliqanlıq) maddəsi ilə cinayət işi başlanılıb. Hadisə iştirakçılarından bir qrupu saxlanılıb. Rəsmi məlumatda saxlanılanların kimliyi, dava tərəfləri haqda isə hər hansı bir bilgi verilməyib. Kütləvi davanın əsas tərəfləri kimi sabiq nazir Yavər Camalovun qardaşı oğlu Elmir Camalov və oliqarx Leysan Məmmədovun oğlu Elnur Məmmədov qeyd edilirdi. Bildirilirdi ki, həmin axşam ərazidə Jah Khalib-in konserti və Çempionlar Liqasının onlayn translyasiyası keçirilib. Olay zamanı hətta Elmir Camalovun bıçaq xəsarəti alması xəbəri də vardı. Olaydan sonra bu iki şəxs də daxil olmaqla, 8 nəfər saxlanılmışdı. Bu davanın videogörüntüləri də sosial şəbəkələrdə yayılmışdı. Məhkəmə qarşısına çıxarılan təqsirləndirilən və zərərçəkənlər arasında Elmir Camalov yoxdur. Amma Camalovlarla qohumluq əlaqəsində olan Elmir İsmayılov təqsirləndirilən şəxs statusundadır. Elmir İsmayılov Müdafiə Sənayesi Nazirliyi Aparatının rəhbəri olmuş Üzeyir Ərəstun oğlu İsmayılovun oğludur. Üzeyir İsmayılov sabiq nazir Yavər Camalovun qardaşı, iş adamı Əlikram Camalovun kürəkənidir. Elmir İsmayılovun adı mətbuatda əvvəllər də hallanıb. 2020-ci ilin iyununda mətbuatda "Bakıda iki cangüdənlə gəzən tələbə kimdir?" sərlövhəli yazı tirajlanmışdı. Həmin yazıda Elmir İsmayılovdan bəhs olunurdu. Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsil alan və 2 maşın cangüdənlə gəzən Elmir İsmayılovun bahalı maşın həvəskarı olduğu, hətta Bakı küçələrində sürətlə avtomobil sürməkdə ad çıxardığı iddia edilirdi. Bloger Həbib Müntəzir məmur oğlunun avtomobil kolleksiyasına daxil olan maşınların bir neçəsinin marka və dövlət qeydiyyat nişanları haqda da məlumat yaymışdı:

- "Mercedes GL-Class 63" markalı, 90-ZZ-009 avtomobil;
- "Porsche Panamera" markalı, 90-ZZ-009 nömrəli avtomobil;
- "Toyota Camry" markalı, 10-AD-011 nömrəli avtomobil;
- "Mercedes S63 AMG" markalı, 90-ZZ-009 nömrəli avtomobil;
- "Mercedes-Benz Gelandewagen" markalı, 90-OZ-009 nömrəli avtomobil.

**Blogerin yazdığına görə, Elmirin əmisi Üveysi İsmayılov Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəis müavinidir:** "Ölkədə mərmər monopoliyasına nəzarət edir. Üveysi İsmayılov Bakı şəhəri, Binəqədi rayonu, Ə.Naxçıvani küçəsi, 26 a saylı binanın yaxınlığında 3 mərtəbəli 260 kvadratmetrlik kommersiya obyekti tikdirib. O, baş prokurorun keçmiş müavini Rüstəm Usubovun kürəkənidir".

İş üzrə iki zərərçəkəndən biri olan Elnur Məmmədovun nə işlə məşğul olması barədə məlumat olmasa da, atası Leysan Məmmədovun son iş yeri Bakı şəhəri, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini postu olub. Leysan Məmmədov bu ilin aprelində vəzifəsindən ayrılıb.

Leysan Novruz oğlu Məmmədov 03.01.1963-cü ildə Tovuz rayonunda anadan olub. O, 2006-2021-ci illərdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Tikilməkdə olan obyektlərin Müdiriyyətində direktor müavini, direktor, 2021-ci ildən 2022-ci ilin fevral ayına qədər Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyində Aparat rəhbəri kimi davam edib. Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 14 fevral 2022-ci il tarixli 22 saylı sərəncamı ilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsinə təyin edilib. 2010-cu ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adı ilə, 2014-cü ildə isə Azərbaycan Respublikasında tikinti kompleksinin inkişafında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilib. Ailəlidir, üç övladı var.

Oliqarx övladlarının bundan əvvəlki, noyabrın 21-nə təyin olunmuş məhkəmə prosesi baş tutmayıb. Səbəb kimi dövlət ittihamçısının qatılmaması göstərilməklə proses noyabrın 23-nə qədər ertələnib.

**❑ Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Ölkə sərt qışa necə hazırlaşır - rəsmi açıqlamalar

## BŞİH: "Texnika hazırdır, tapşırıq verilib, ona görə..."

**Bu il qış fəslinin soyuq keçəcəyi, havaların qarlı, şaxtalı olacağına dair rəsmi proqnozlar var. Hətta bəzi mənbələr son 20 ilin ən sərt qışının olacağını iddia edirlər. Bəs ölkə sərt qışa necə hazırlaşır? İşıq, qaz problemləri yaranmayacaq ki? Paytaxt Bakıda ən ciddi problemlərdən biri də yolların vaxtında qardan təmizlənməməsi olub ötənlərdə. Buna indidən hazırlıq görülürmü?**



Yeri gəlmişkən, ekspertlər bildirirlər ki, qış aylarında güclü qar, yağış yol hərəkəti təhlükəsizliyinə çox böyük təsir edir. Dumanlı hava şəraiti, digər səbəblər yollarda qəzalara səbəb olur, sıxlıq, tıxac yaradır. Narazılıq doğuran isə belə havalarda yolların eyni şəkildə təmizlənməməsi ilə bağlıdır.

Bu arada, bir neçə gündür ki, havalar soyuyub, artıq məktəblərdən şikayətlər də var. Övladları Nizami rayonu 145 saylı orta məktəbdə təhsil alan valideynlər qəzetimizə bildiriblər ki, məktəbə istilik verilməyib: "Uşaq evə gəlib, deyir hamımız sinifdə paltoda oturmuşuq, çox soyuq idi". Valideynlər əlavə ediblər ki, istilik verilmədiyinə görə övladlarını bu gün (dünən - red.) məktəbə göndərməyiblər.

Yalnız bu məktəbdən deyil, sosial şəbəkələrdə də mənzillərə istiliyin verilməməsi, ya da çox zəif verilməsi ilə bağlı şikayətlər var.

**Məsələ ilə bağlı "Azəristiliktəchizat" ASC-nin mətbuat katibi Elvin Basqallı "Yeni Müsavat"a dedi ki, bütün məktəblər noyabrın 15-dən istiliklə təmin edilib:** "Balansımızda olan bütün məktəblər kimi 145 saylı orta məktəbə də noyabrın 15-dən istilik verilib. İstilik havanın temperaturuna uyğun olaraq tənzimlənir. Noyabrın 15-də hava mülayim keçdiyinə görə verilən temperatur həmin günlərdə o qədər yüksək olmaya bilərdi. Yalnız noyabrın 21-i 145 saylı məktəbdə istilik olmayıb. Yaxınlıqda çox kiçik bir boru xətti dəyişdirilib, dünən dərs vaxtı istilik olmayıb, sonra əməkdaşlarımız orada kiçik təmir işləri aparıblar, dərhal istilik bərpa olunub".

**Bakı Şəhəri İcra Hakimiyyətindən "Yeni Müsavat"a bildirildi ki, qışa hazırlıq işləri aparılır, texnikalar da hazır vəziyyətdədir**: "BŞİH-in 60-a yaxın texnikası var. Bundan başqa, yerli icra hakimiyyətlərinin, bələdiyyələrin, yerli təsərrüfat birliklərinin texnikası da bura qatılır. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin də texnikaları var, həmin qarlı günlərdə əsas prospektlərə onlar nəzarət edir. O cümlədən biz müşavirələrdə çağırış etmişik ki, rayonun ərazisində yerləşən idarə və təşkilatların da texnikaları cəlb olunsun. Mənzil kommunal departamentinin qarajı olmaqla kifayət qədər duz ehtiyatı yaradılıb. Bizdə ərazi baxımından ən böyük rayon Qaradağ rayonudur, burada ayrıca duz toplamaq üçün yer var. Yalnız burada deyil, digər rayonlarda da belə yerlər var ki, qar yağanda duz üçün uzaq məsafəyə gedilməsin. Eyni zamanda rayonlarda idarələrdə qışla əlaqədar inventar yığılıb, qarı təmizləmək üçün kürək, bel, ling yığılıb. Bundan başqa , özəl qurumlar, idarələr, mağazalar, şadlıq saraylarına tapşırılıb ki, öz həyətyanı sahələrini təmizləsinlər. Küçələri kimlər ki, təmizləyəcək, o cavabdeh şəxslərin rayonlarda bölgüsü də hazırlanıb. Onlar hər gün cavabdeh olaraq açıqlama verəcəklər. Müşavirələrin əsas məqsədi rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığın vəziyyətinin araşdırılmasıdır. Yeni Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib, həmin şəxslər yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birgə rayonlarda qış mövsümünə hazırlığı, verilən tapşırıqların və görülən işlərin icra vəziyyətini yoxlayıblar.

Bildirilib ki, son günlərdə ölkənin dağ rayonlarına əvvəlki illərlə müqayisədə daha çox qar yağması qışın sərt və yağmurlu keçəcəyindən xəbər verir. Bununla əlaqədar rayon icra hakimiyyətlərində qışa hazırlıqla bağlı yaradılan qərargahlar, kommunal və təsərrüfat xidmətləri və aidiyyəti təşkilatların rəhbərləri həmin günlərdə üzərlərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirilməsi üçün hazır olmalıdır. Hər bir quruma qarın təmizlənməsi üçün lazımi qədər alət, inventarın (bel, kürək, ling və s.) toplanması, duz ehtiyatı yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması ilə bağlı tapşırıqlar verilib. Rayondakı küçə və məhəllələrin qardan təmizlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanıb, bu işlərə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Həmçinin rayonlardakı idarə, təşkilat və özəl qurumlar, bələdiyyələr, o cümlədən ictimai iaşə müəssisələrinin rəhbərlərinə, ictimaiyyət nümayəndələrinə qarlı günlərdə Avropa ölkələrində də qəbul edilən qaydalara uyğun özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etməyə çağırış edilib".

**❑ Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Azərbaycan və İraq əlaqələrində yeni mərhələ - perspektiv planlar və...

## Ekspertlər bunun siyasi və iqtisadi tərəflərini şərh etdilər; Prezident Əliyev Camal Rəşidlə görüşdə Fransa ilə bağlı bəyanatları təsadüfən səsləndirməyib...

**Azərbaycan Prezidenti İlham Əliyev İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ölkəmizdə səfərdə olarkən mətbuata verdiyi bəyanatında olduqca mühüm məqamlara toxundu.**



Öncə o məqama diqqət yetirək ki, diplomatik əlaqələr tarixi boyunca, bu, İraq prezidentinin Azərbaycana ilk rəsmi səfəri idi. Şübhəsiz ki, bu səfər ölkələrarası münasibətlərin daha da güclənməsinə töhfə verəcək və əməkdaşlığımızda yeni səhifə açacaq.

Qeyd edilib ki, İraq və Azərbaycan müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirir. BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında hər zaman bir-birimizi dəstəkləyirik, bir-birimizin suverenliyini və ərazi bütövlüyünü müdafiə edirik.

Heç şübhəsiz ki, İraq-Azərbaycan münasibətlərinin inkişaf perspektivləri, strateji, iqtisadi, biznes əlaqələrinin yüksəldilməsi baxımından bu səfərin gələcək üçün faydaları çox böyük olacaq.

**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, İraq Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biri olub:** "İki ölkə arasında bu günə qədər mövcud olmuş iqtisadi əlaqələr hər iki ölkənin potensial imkanlarından aşağı olsa da, beynəlxalq platformalarda bir-biri ilə həmrəylik nümayiş etdirən İraq və Azərbaycan iqtisadi müstəvidə də əlaqələrini yetərincə genişləndirə bilərlər. Bu imkanlar var və hesab edirəm ki, İraq prezidentinin Azərbaycana ilk səfəri zamanı müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanmış 4 sənəd iki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsinin başlanğıcı hesab edilməlidir. İmzalanan sənədlər içərisində əhalinin sosial müdafiəsi və turizm sahəsində əməkdaşlığa dair memorandumlar diqqəti daha çox cəlb edir. Azərbaycan əhalinin sosial müdafiəsinin təşkili sahəsində çox yaxşı innovativ yanaşmaların müəllifidir və bu yanaşmaların İraq tərəfi üçün yetərincə maraqlı olacağına şübhə yoxdur. Turizm sahəsində əməkdaşlığın da geniş perspektivləri mövcuddur. Azərbaycan son illər turizmin sürətli inkişafı istiqamətində ciddi addımlar atır. İraqdan Azərbaycana çoxsaylı turistlərin gəlməsi mümkündür. Eyni qaydada Azərbaycandan İraqa hər il minlərlə dindar insanlar o torpaqlardakı müqəddəs yerləri ziyarət etmək üçün səfər edir. İki ölkə arasında turizm sahəsində əməkdaşlıq belə ziyarətlərin daha sivil bir formada təşkil olunmasına xidmət edə bilər. Hava əlaqələrinə dair saziş də iki ölkə arasında bu sahədə işlərin daha yaxşı təşkili üçün zəmin yaradır.

Siyasi məsləhətləşmələr sahəsində əməkdaşlığa dair Momerandum isə Azərbaycanla İraqın beynəlxalq müstəvilərdə bu günə qədər nümayiş etdirdikləri birliyin daha da möhkəmlənməsinə xidmət edəcək.

Gələcəkdə iki ölkə arasında yanacaq-energetika sahəsində əməkdaşlığın da böyük potensialı var. Çünki hər iki ölkənin böyük yanacaq enerji ehtiyatları var. Hesab edirəm ki, bu sahədə əməkdaşlıq yaxın perspektivdə hər iki ölkəyə həm iqtisadi, həm də siyasi müstəvidə yaxşı töhfə verə bilər".

"Bir neçə gün əvvəl İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin Azərbaycana səfəri ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun daha bir göstəricisidir. Bu səfər ölkələrimiz arasında dostluq münasibətlərinin daha da güclənməsinə töhfə verəcək və əməkdaşlığımızda yeni səhifə açacaq".

Bu fikirləri qəzetimizə açqlamasında **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** bildirib: "Dövlətimizin başçısı görüş zamanı Ermənistan-Azərbaycan münasibətlərinin hazırkı vəziyyəti, ümumiyyətlə, 1990-cı ildən bəri baş verənlər barəsində məlumat verdi. Bu da ondan irəli gəlirdi ki, İraq prezidenti ölkəmizə səfərini başa vurduqdan sonra Ermənistana səfər edəcəkdi. Ona görə də o, əsl həqiqətləri bilməli idi. Prezident həmçinin bildirib ki, Fransa Cənubi Qafqazda çox destruktiv rol oynayır. Ermənistan Fransa hökumətinin marionetinə çevrilib və bu, regional sabitliyə ciddi təhlükə ola bilər. Fransanın müstəmləkəçi olması artıq beynəlxalq ictimaiyyətə də bəllidir. Bu günlərdə Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə həyata keçirilən "Dekolonizasiya: Qadınların Gücləndirilməsi və İnkişafı" mövzusunda konfransın iştirakçılarına ünvanlanmış müraciətində dövlətimizin başçısı bildirdi ki, Fransa digər ölkələrdə etnik təmizləmə siyasəti həyata keçirir. O qeyd etdi ki, Fransa öz müstəmləkəçilik tarixinə görə üzr istəməlidir".

**Hüquq müdafiəçisi deyib ki, Afrikadan qovulan Fransa indi də Cənubi Qafqaza göz dikib və çirkin niyyətini Ermənistanı silahlandırmaqla həyata keçirmək istəyir. O, dövlətimizin başçısının İraq Prezidenti ilə görüşündə Azərbaycanın qəti mövqeyini bir daha ortaya qoyduğunu xatırladıb**: "Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz. Azərbaycan sülhə hazırdır. Biz sülhə hazırıq, lakin ədalətli sülhə, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan sülhə. Biz sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazırıq".

**Siyasi şərhçi Aqşin Kərimov çox maraqlı faktlara toxundu:** "İraq prezidenti Əbdüllətif Camalın Azərbaycana səfər edərək Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü ikitərəfli əlaqələri inkişaf etdirməyin düsturlarını tapmaq və onu dəyişən regional konfiqurasiyanın arasında mövqeləndirmək baxımından diqqətəlayiq idi: "Hər iki prezident mətbuata birgə bəyanat zamanı Azərbaycan-İraq münasibətlərinin səmərəli dərinləşməsini özündə ehtiva edən formulu qarşılıqlı iqtisadi əməkdaşlıq modeli qurmaq çağırışları ilə səsləndirdi. Amma Əliyevlə Camalın görüşünün daha geniş regional gündəliyi əhatə edən fazası da mövcuddur.

### Niyə Fransa?

Əliyevin mətbuata birgə bəyanat zamanı Azərbaycan-Ermənistan münasibətlərindən bəhs etməsi, Fransanın regionda gizli və ambisiyalı gündəlik qurmaq planlarını qabartması Cənubi Qafqazla Yaxın Şərqin əlaqəli ola biləcək konteksti fonunda əhəmiyyətlidir. Bunun batinində duran motivləri təhlil etmək üçün Fransanın Cənubi Qafqaz və Yaxın Şərqin İraq cinahındakı mövqelərini bir-biri ilə calaq etmək tendensiyasına diqqət etmək lazımdır.

Yəqin ki, İlham Əliyev fikri Azərbaycanın İraqdakı iqtisadi iştirakında Fransanın maneəyaradıcı səylərinə yönəldir. Yoxsa çox asanlıqla və ilkin qənaətlə sual etmək olardı ki, Azərbaycan Prezidenti niyə məhz iraqlı həmkarının yanında Fransa ilə əlaqədar bəyanat səsləndirir?

Mövzu üzrə daha da dərin qatlara enmək üçün Fransa ilə İraqın münasibətlər sisteminə konseptual baxışla nəzər yetirmək ehtiyacı yaranır.

Öncəliklə bunu diqqətdən qaçırmayaq ki, Fransanın Yaxın Şərq regionu boyunca maraqları Böyük Britaniya və ABŞ ikilisinin enerji tədarükündəki üstünlük təşkil etdiyi məsələlərə ehtiyatla baxaraq şişir. Fransa 1920-ci illərdən bəri İraqın neft hasilatında 25 faizlik paya malik idi. Nəticədə, 1970-ci illərin sonunda İraq Fransanın özünün əsas ticarət, hərbi və nüvə texnologiyası tərəfdaşına çevrildiyini yeganə istisna kimi təqdim edib. Fransa da bunun qarşılığı olaraq İran-İraq müharibəsi zamanı Bağdadı yüksək texnoloji avadanlıqlarla silahlandırıb və onu Tehrana qarşı dəstəkləyib.

Amma Fransa 1990-cı ildə İraqın Küveyti işğal etməsinə qarşı ABŞ və Böyük Britaniya koalisiyasına qoşuldu, bununla da Parislə Bağdad körpüsü dağılmağa başladı. Bundan 13 il sonra - 2003-cü ildə ABŞ, Böyük Britaniya və Fransa üçlü ittifaqı İraqdakı müharibə nəticəsində dağıldı, çünki Parisin London və Vaşinqtonla prinsiplərinin toqquşması yenidən baş qaldırmışdı.

Vəziyyət o yerə çatmışdı ki, o dövrdə Fransanın prezidenti olmuş Jak Şirakın administrasiyası İraqın ABŞ tərəfindən işğalına etiraz etmişdi və Vaşinqtonun birtərəfli gündəlik formalaşdırmaq cəhdinə qarşı müxalif mövqedə idi. Amma bunun özü belə, Fransa ilə İraqın yenidən yaxınlaşmasını təmin etmədi.

Yaxın Şərqdə İŞİD terrorizmi səhnəyə çıxdıqda isə Fransa Yaxın Şərqdəki mövcudluğunu daimi əsasa çevirmək üçün siyasi, hərbi və humanitar vasitələrlə dəstək paketini xərclədi və bunun fonunda İraqla əməkdaşlığı canlandırdı. Sonradan, 2020-ci ildə İraq Fransanın yardımından faydalanan dövlətlər arasında ön sıralarda oldu.

- 2017-21-ci illər arasında Fransanın İraqa yardımı 60 milyon avroya çatıb;

- 2019-cu ilə qədər iki ölkə arasında ticarət mübadiləsinin həcmi 1,3 milyard dollar olub.

Deməli, Fransanın Yaxın Şərqdəki dirçəlişində İraqla münasibətlər alternativ pəncərələrdən biridir və indi Parisin regionda artan ambisiyaları Azərbaycanın İraqdakı maraqlarına qarşı stimullaşa bilər. Azərbaycana bu baxımdan Fransanın İraqdakı ambisiyalarını təhlil etmək əhəmiyyətlidir, burada təkcə iqtisadi əməkdaşlığa qarşı Parisin qura biləcəyi oyunlardan bəhs oluna bilməz. Çünki Fransanın İraqa doğru addımları Parisin Türkiyə əleyhinə şəbəkəsində birləşdirici halqadır. Fransa regional güc mərkəzi olan Türkiyənin İraqda dominantlıq etdiyi bölgələrdə mövcudluğunu artırmaq cəhdlərini gizlətməkdən qaçmır. Fransanın belə fürsətçi radarlar quraşdırması Bakı-Ankara strateji müttəfiqliyinin regiondakı birgə maraqlarına qarşı qiymətləndirilir. Mənim düşüncəmə əsasən, İlham Əliyevin iraqlı həmkarına Azərbaycan-Ermənistan münasibətləri fonunda Fransa ilə bağlı mövqeyini çatdırması daha böyük bir gündəliyin ortaya çıxardığı çağırışın qiymətləndirilməsidir".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**



## Prezident: "Azərbaycanla Britaniya arasında siyasi əlaqələr yüksək səviyyədədir"

**Ölkəmizə qoyulan investisiyalar Azərbaycana göstərilən inamı nümayiş etdirir. APA xəbər verir ki, bu barədə Prezident İlham Əliyev noyabrın 22-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokertini qəbul edərkən bildirib.**

Prezident İlham Əliyev qeyd edib ki, BP şirkətinin uzun illər bundan əvvəl Azərbaycanda fəaliyyətə başlaması ölkəmizin iqtisadi inkişafında və respublikamızda investisiya layihələrinin həyata keçirilməsində mühüm rol oynayıb.

Dövlət başçısı hazırda Azərbaycan-BP əməkdaşlığının bərpaolunan enerji sahəsi ilə bağlı yeni mərhələyə qədəm qoyduğunu deyib və bunun region üçün çox gözəl nümunə olduğunu bildirib.

Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən Azərbaycan Prezidenti bir daha Leo Dokertinin səfərinin əlaqələrimizin inkişafı ilə bağlı məsələlər barədə fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətinə toxunub.

YENİ MÜSAVAT
N 210 (8346) 23 noyabr 2023

## Zatulin: "2021-də erməni müxalifəti Paşinyanı devirmək üçün Rusiyadan dəstək istəyib"

**2021-ci ildə erməni müxalifəti dəstək istəyi ilə Rusiya Federasiyasına müraciət edib.**

APA xəbər verir ki, bunu Dövlət Dumasının deputatı Konstantin Zatulin "Danışır Moskva" (Qovorit Moskva) radiostansiyasına açıqlamasında deyib.

O, Rusiyanın müxalifətə dəstəkdən imtina etməsinə də münasibət bildirib: "Lakin Rusiya tərəfi hakimiyyət dəyişikliyinin 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata təsir göstərə və yeni müharibəyə səbəb ola biləcəyi səbəbi ilə bundan imtina edib".

Zatulin hazırda Ermənistanda Rusiyaya ictimai dəstəyin azalmaqda olduğunu və buna səbəb kimi Ermənistanda səhərdən axşama kimi internetdə, televiziyada və s. insanların Rusiyaya qarşı "beyinlərinin yuyulması" olduğunu deyib.

## Zelenski sülh formulunu müzakirə etmək üçün Trampla görüşməyə hazırdır

**Ukrayna Krım və Donbasın Rusiyaya verilməsinə razı olmayacaq.**

APA xəbər verir ki, bunu Ukrayna prezidenti Volodimir Zelenski "Fox News" telekanalına müsahibəsində deyib.

Ukrayna lideri vurğulayıb ki, Krım və Donbas Rusiyaya verilsə, müharibəni dayandırmaq olar, lakin Ukrayna buna razı olmayacaq:

"Bu, sülh planı deyil", - Zelenski bildirib.

Zelenski ABŞ-ın sabiq prezidenti Donald Trampla görüşməyə və onun Ukrayna ilə bağlı sülh planını dinləməyə hazır olduğunu bildirib:

"Gəlin Trampla danışaq və ona sülh formulunda hansı addımların olduğunu göstərmək imkanı verək. Təbii ki, onun aydın sülh planı varsa, mənimlə bölüşə bilər. Mən görüşməyə hazıram", - Ukrayna prezidenti vurğulayıb.

Volodimir Zelenski noyabr ayını Vaşinqtonun dəstəyi nöqteyi-nəzərdən ən çətin ay adlandırıb. ABŞ-ın Ukraynaya dəstəyinin davam etdirilməsini zəruri adlandırıb və qeyd edib ki, bu yardımlar Birləşmiş Ştatların da maraqlarına xidmət edir.

# ABŞ və Fransanın saxtakar Cənubi Qafqaz və sülh siyasəti

## **Deputat Hikmət Babaoğlu:** "ABŞ və Fransanın 30 il ərzində siyasəti nə idisə, bu gün də odur, lakin Azərbaycan dəyişib, güclənib"



**Qarabağ işğalda olduğu müddətdə heç şübhəsiz ki, həm də Qərb dairələrinin formalaşdırdığı belə bir rəy vardı ki, münaqişəni həll olmağa qoymayan Rusiyadır. Ancaq 44 günlük Vətən müharibəsində, habelə lokal antiterror tədbirləri zamanı, eyni zamanda istər işğal dövründə, istərsə də Qarabağın azadlığından sonra gedişatdan aydın oldu ki, Qərb dairələri hansı ikiüzlü, saxta mövqedə olub.**

Artıq bölgədə bütün problemləri Azərbaycan öz gücü ilə həll edib, suverenliyini tam bərpa edib. İndi nə baş verir? ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda dinləmələr keçirilir! Bunun özü Amerika üçün biabırçılıqdır. Azərbaycanda, ümumiyyətlə, "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur. ABŞ siyasətçiləri Azərbaycanın siyasi, coğrafi xəritəsini "öyrənməyiblər", eləcə saxta informasiyalara əsaslanırlar, yaxud da özlərini belə siyasi korluğa vururlar. Onları Qarabağın gələcəyi belə düşündürürsə, niyə 30 ildə kor olmuşdular?

Azərbaycan əraziləri işğalda saxlananda, Qarabağ ermənilər tərəfindən terror yuvasına döndərilməsinə, narkoplantasiyalar məkanına çevriləndə niyə lal idilər?

Azərbaycan dəfələrlə və ən yüksək səviyyədə bəyan edib ki, Qarabağın dinc erməni əhalisinin hüquqlarının, təhlükəsizliyinin qorunmasına tam təminat verir. Azərbaycanın belə pozitiv davranışının qarşılığında isə ABŞ və Fransa rəzil, eybəcər, saxta bir siyasət yürüdür. Dinləmələr keçirməkdə məqsədləri sırf Azərbaycana qarşı təzyiqlər üçün bəhanələr formalaşdırmaqdır. İstər ABŞ, istər Fransa Cənubi Qafqazda güclü Azərbaycan görmək istəmir. Onlara "sözəbaxan" bölgə dövlətləri lazımdır. Bunu isə Azərbaycandan görməyəcəklər.

**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 20-də İraq prezidenti ilə görüşdə bir daha Azərbaycana qarşı məkrli oyunlar qurmağa cəhd edən Qərb dairələrinə mesaj verdi.**

**Sitatlar:**

*- Fransa Cənubi Qafqazda çox destruktiv rol oynayır. Ermənistan Fransa hökumətinin marionetinə çevrilib və bu, regional sabitliyə ciddi təhlükə ola bilər;*

*- Bizə heç bir müharibə lazım deyil. Biz öz ərazimizdə vuruşurduq və ədaləti, beynəlxalq hüquqi bərqərar etdik;*

*- Ermənistan hökuməti və siyasi establişmenti qisas haqqında düşünür. Fransa hökumətindən gələn yanlış mesajlar Ermənistan hökumətində və ola bilsin ictimai rəyində onların Azərbaycana qarşı növbəti hərbi təcavüzə başlaya biləcəklərinə dair illüziya yaradır;*

*- Ermənistan öz gələcəyini regionumuzdan uzaqda yerləşən ölkələrin ambisiyaları üzərində deyil, öz milli maraqlarına əsasən planlaşdırmalıdır. Xüsusilə qanlı müstəmləkə keçmişinə malik olan ölkələrin ambisiyaları üzərində qurmamalıdırlar;*

*- Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz! Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək;*

*- Azərbaycan sülhə hazırdır. Biz sülhə hazırıq, lakin ədalətli sülhə, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan sülhə. Biz sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazırıq.*

ABŞ və Fransanın bu cür riyakar siyasəti haradək davam edəcək? Onlar Azərbaycandan nə istəyirlər? Bəs Azərbaycan bunun qarşılığında hansı siyasi xətti tutacaq? Qərb niyə Cənubi Qafqazda sabitlik istəmir, pozuculuqla məşğuldur? Prezident Əliyevin onları ifşa edən açıqlamasından nəticə çıxarmalıdırlarmı?

**Milli Məclisin deputatı Hikmət Babaoğlu "Yeni Müsavat"a bildirdi ki, Fransa və ABŞ-ın hazırkı mərhələdəki Cənubi Qafqaz siyasəti sülhə, əməkdaşlığa xidmət etmir. Əslində 30 illik münaqişə dövründə də ATƏT-in Minsk Qrupunun həmsədrləri kimi nə Fransanın, nə də ABŞ-ın mövqeyi sülhdən və barışıqdan yana deyildi. Məhz iki həmsədr ölkənin bu yanaşması kontekstində 30 il davam edən danışıqlar prosesində sülh əldə etmək mümkün olmadı:** "Yeni ABŞ və Fransanın 30 il ərzində siyasəti nə idisə, bu gün də dəyişməyib. Ancaq Azərbaycan dəyişib, reallıqlar dəyişib. Azərbaycan qan tökərək regionda beynəlxalq hüququ və ədaləti bərpa edib. Sülh üçün heç olmadığı qədər münbit şərtlər formalaşdırıb. Azərbaycan Prezidenti hərbi, siyasi memarı olduğu bu gerçəkliyi kiminsə yenidən manipulyasiya etməsinə izn verməyəcək. Cənubi Qafqazda yenidən hegemon ölkələrin militarizasiya siyasətinin, hərbləşdirmə siyasətinin baş tutmasına imkan verilməyəcək. Hansı ki, bu gün Fransa Ermənistanı çox cidd-cəhdlə silahlandırır. Ermənistan da əslində müstəqil dövlət olmadığı üçün Fransanın bu hərbi-siyasi avantürasının alətinə çevrilir. Biz postsovet məkanı və Yaxın Şərq təcrübəsindən bilirik ki, hegemon güclərin militarizasiya siyasəti, sadəcə, onların özünün maraqlarına xidmət edir. Ukraynada olduğu kimi, Yaxın Şərqdə olduğu kimi. Çox təəssüf ki, Ermənistan müstəqil dövlət olmadığına görə bu avantüranın bir parçasına çevrilməklə yeni müharibələr üçün şərtlər yaradır. Amma bir məsələ çox aydındır ki, əgər Cənubi Qafqazda yeni bir müharibə baş verəcəksə, bu müharibə artıq Azərbaycanın ərazisində olmayacaq. Poliqon Ermənistan olacaq. İrəvan bunu nəzərə almalı və nə qədər gec deyil, nəticə çıxarmalı, sülh sazişini imzalamalıdır".

**Deputatın fikrincə, Azərbaycan Prezidenti regionun problemlərinin regional aktorlar müstəvisində həll olunması məsələsini deyən zaman məhz həm də bunu nəzərdə tuturdu ki, kənar müdaxilələr region dövlətlərinə rifah və sülh gətirməyəcək, yaxşı olar Ermənistanda bu, dərk edilsin:** "Ona görə də ABŞ Konqresində dinləmələrin aparılması, Azərbaycan əleyhinə fikirlərin səsləndirilməsi, ərazimizdə olmayan adda bir inzibati vahid haqda dinləmələrin keçirilməsi, onun perspektivlərindən danışılması ABŞ-ın beynəlxalq hüquqa qarşı olan zidd mövqeyidir, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü şübhə altına almasıdır. Belə olan halda Azərbaycan haqlı olaraq öz mövqeyini israrla müdafiə edəcək və əsla bu cür hərbi-siyasi avantüraların Cənubi Qafqazda reallaşmasına imkan verməyəcək. Azərbaycan Prezidentinin üç gün öncəki açıqlamaları da buna - sülhə, regional əməkdaşlığa, regionumuzun gələcək inkişaf perspektivlərinə xidmət edir".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

**Azərbaycan sentyabr ayında lokal antiterror tədbirləri keçirməklə, təkcə ərazi bütövlüyünü, suverenliyini təmin etmədi, həm də orada uzun illərdir terrorçu rejimin girovluğunda olan erməni sakinləri də xilas etdi. Həm də bəyanat verildi ki, dinc erməni əhali öz evlərində rahat və təhlükəsiz yaşaya bilər.**

# USAİD direktorundan saxtakarlıq - məcburi köçkünləri bir dəfə ziyarət etmədi, amma...

## Ermənistanın işğalçılığına və terrorçu fəaliyyətinə stimul verən çevrələr yenidən hərəkətə keçib; Azərbaycana qarşı savaş açan fitnəkar ölkələrə və mərkəzlərə kəskin etirazlar: "Zəhmətkeş ABŞ xalqının vergiləri bu gün inkişafa və demokratiyaya deyil, xaosa, çaxnaşmalara sərf olunur"



Ancaq Ermənistanın havadarları, həmçinin rəsmi İrəvan növbəti ağlaşma qurmaq, saxta hesabatlar yaymaq üçün uzun illər girovluqda qalmış erməniləri Ermənistana köçməyə çağırdı. Dünya bunu məhz bu cür qiymətləndirməli olduğu halda, biz faktiki olaraq qərəzli yanaşmaların baş qaldırdığını müşahidə edirik. USAİD direktoru Samanta Puerin də erməni sakinlərinin Ermənistana könüllü köçməsini "məcburi köç" adlandırması təəccüb doğurmaya bilmir. Axı bütün bu proses kameralar önündə baş verdi - hamısı açıq etiraf edirdi ki, onlara Azərbaycan heç bir təzyiq etmir. Bəziləri könüllü getdiyini deyirdi, bir çoxu isə Qarabağda mövcud olmuş xunta rejiminin təhdidi altında köçdüyünü deyirdi. Azərbaycan XİN Puerin qərəzli yanaşmasına dərhal reaksiya verib. "Azərbaycanın Qarabağ regionunun erməni sakinlərinin Ermənistana miqrasiyasını məcburi köç adlandırmaq əsassız və ədalətsizdir", - deyə, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə "X" platformasında USAİID direktoru Samanta Puerin paylaşımına cavab kimi qeyd edib. O, Pauerin Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğalda saxladığı təxminən 30 il boyunca Ermənistan əleyhinə heç bir fikir səsləndirmədiyini, əksinə, hətta post-münaqişə mərhələsində belə beynəlxalq hüququn və Ermənistanın öhdəliklərinin ziddinə bəyanatlar verdiyini qeyd edib. A.Hacızadə Samanta Pauerin regiona səfəri zamanı Ermənistana miqrasiya etmiş ermənilərlə görüşdüyünü, lakin növbəti gün Ermənistanın təcavüzü nəticəsində fundamental hüquqlarından məhrum edilmiş azərbaycanlı qaçqın və məcburi köçkünlərlə görüşdən imtina etdiyini xatırladıb. XİN rəsmisi vurğulayıb ki, təxminən 30 illik işğal boyunca sayı 10 dəfə çox olan azərbaycanlı qaçqın və məcburi köçkünlərin üzləşdiyi ağır vəziyyəti öyrənmək üçün bir dəfə də olsun USAİD rəhbərliyi səviyyəsində ziyarət baş tutmayıb. Ümumiyyətlə, Ermənistanın işğalçılığına və terrorçu fəaliyyətinə stimul verən çevrələr yenidən hərəkətə keçiblər. ABŞ Senatındakı dinləmələr, ölkəmizə qarşı riyakar münasibət, təzyiq rıçaqlarının işə salınması göz qabağındadır. USAİD rəhbərliyindən sonra digər təşkilatların da oxşar qərəzli bəyanatlarının şahidi olacağımız şübhəsizdir. Azərbaycan bu iddiaları faş etmək, həqiqətləri çatdırmaq üçün hansı addımları atmalıdır?

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, USAİD, NED, IREX, Marşall Fondu və digər təsir agenti laboratoriyalarının niyə yaradıldığı və nəyə xidmət etdikləri kimsəyə sirr deyil:** "O da sirr deyil ki, ABŞ "soyuq savaş" illəri başa çatandan sonra özünün yumşaq güc potensialını əvvəllər olduğu kimi imicinin daha da güclənməsi yolu ilə təsirinin artmasına yox, idarəolunan xaos yaratmağa sərf edir. Yeni köntöycəsinə və birbaşa hərəkətə üstünlük verir. Azərbaycan dəfələrlə bu ölkənin sözügedən qurumlarının bir çox hallarda sinxron və koordinasiya olunmuş basqıları ilə üzləşib, onları uğurla dəf edib. Yenə də eyni reallıqla üzləşəcəklər. Amma məncə, ABŞ-dakı bəlli çevrələrin ölkəmizə, torpaq bütünlüyümüzə qarşı bu cür açıq düşməncəsinə davranışlarından sonra biz artıq onların təsir agenti laboratoriyalarının buradakı fəaliyyətini tam sıfırlamalıyıq. Və Türk Dövlətləri Təşkilatı çərçivəsində də ABŞ-ın idarəolunan xaos mərkəzlərinə qarşı birgə əməkdaşlıq haqda düşünməli, təkcə dövlət qurumlarımız deyil, vətəndaş cəmiyyəti institutlarımız da bunun üçün səfərbər edilməlidir".

**S.Alıyev təsdiqləyir ki, ABŞ-ın idarəolunan xaos mərkəzlərinin, təsir agenti laboratoriyalarının potensialları böyükdür:** "Milyardlarla dollar vəsaitləri var, qlobal media və bir sıra beynəlxalq qurumlarla sinxron çalışırlar. Amma potensiallarının böyüklüyünün onlarda yaratdığı bir özündənrazılıq da var ki, bu, köntöycəsinə davranışlarının arxasında nə dayandığını açıq-aydın ortaya qoyur. Beləliklə, özlərini də, təmsil etdikləri ölkəni də çox yerdə, ilk növbədə də Azərbaycanda çoxdan gözdən salıblar. Onların Milli Şura adlanan qurumdakı təsir agentlərinə-antimilli ünsürlərə və elələrinin dövrəsində fırlananlara Azərbaycanda indi yanaşma necədir? Onlara ətraflarına adam toplamaq üçün milyonlarla dollar vəsait verilir, ancaq görün cəmiyyətdə bir qəpiklik hörmətləri varmı, qalıbmı? Həmin adamlar ABŞ ordusu Əfqanıstanı tərk edib qaçanda onlara xidmət etsələr də, özləri ilə götürülməyib, taleyin ümidinə buraxılan, necə acınacaqlı vəziyyətlə üzləşdiklərini bildiklərindən amerikalılar uçan təyyarələrin şassilərindən yapışan, sonra da göydən yerə yuvarlanan əfqanlar kimi, bu xalqın gözündən düşüblər. ABŞ-ın, eləcə də Qərbdəki digər çevrələrin buradakı təsir agentləri də var, baxın, indi bizdə onlara yanaşma xaricdəki söyüş söyməklə pul qazanan əqidədaşlarından çoxmu fərqlənir? Yox, qətiyyən fərqlənmir, burada da heç şübhəsiz onların xidmət etdikləri, təsir agenti olduqları çevrələrin Azərbaycana yanaşmaları, bizim torpaqlarımızı işğaldan qurtarmamızı həzm edə bilməmələri az rol oynamır".

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov bu mövzudan bəhs edərkən öncə bir sıra maraqlı faktları açıqladı:** "Beynəlxalq İnkişaf Üçün Birləşmiş Ştatlar Agentliyi (USAİD) 1961-ci ildə, ona qədər mövcud olan İqtisadi Əməkdaşlıq İdarəsinin bazasında yaradılıb və üzdə olan məqsədi xarici ölkələrə yardım etməkdir. Nizamnaməsində göstərilir ki, "Agentliyin əsas iş sahələrinə ticarət, kənd təsərrüfatı, iqtisadi artım, səhiyyə, təcili humanitar yardım, münaqişələrin qarşısının alınmasına yardım və dünyanın inkişaf etməkdə olan ölkələrində demokratiyanın dəstəklənməsidir". Rəhbəri və müavini ABŞ senatı ilə razılaşmaqla prezident tərəfindən təyin olunan bu qurumun işini ABŞ Dövlət Deparamenti ələqələndirir. Təəssüf ki, bu qurum yarandığı gündən beynəlxalq inkişafa və nizamnaməsində yazıldığı kimi, digər ölkələrdə "demokratiyanın dəstəklənməsinə" xidmət etmir. Bu qurumun məqsədi digər ölkələri ABŞ dövlətinin maliyyə, iqtisadi və siyasi təsiri altında saxlamaqdır. Bu təsir altına düşməyən ölkələrdə isə "Yumşaq güc" (soft power) və ya "yumşaq təsir" və "Sərt güc" (hard power) vasitələrindən istifadə etməklə hakimiyyətləri dəyişmək və xaos yaratmaqla öz təsiri altına almaqdır".

**S.Məmmədov əminliklə bildirdi ki, bu qurumun Azərbaycanda da dərin kökləri var və o, bütün sferalara nüfuz edə bilib:** "Fəaliyyəti son illərdə bir qədər məhdudlaşsa da - USAİD-dən birbaşa maliyyələşən bir neçə ABŞ təşkilatının Azərbaycandakı fəaliyyəti dayanıb - həm legitim yolla, həm üçüncü ölkələr vasitəsilə Azərbaycanda nüfuz dairəsində saxladığı təşkilatları maliyyələşdirməkdə davam edir. Bu təşkilatlar içərisində hakimiyyətlə sıx əməkdaşlıq edən qurumlar da var. Yuxarıdakıları ona görə qeyd etdim ki, USAİD-in Azərbaycana münasibəti həmişə eyni olub, onun rəhbərinin kim olmasından asılı olmayaraq. Azərbaycan ABŞ-la hərbi əməkdaşlıq və NATO proqramlarında daha yaxından iştirak zamanı bu qurum özünü, sadəcə, üzdə Azərbaycanla "sıx əməkdaşlıq edən təşkilat" kimi göstərib. Nə USAİD, nə onun birbaşa maliyyələşdirdiyi "Freedom House" tipli ABŞ GONGO (hakimiyyətə bağlı QHT) təşkilatları Azərbaycan əraziləri işğal altında olanda, Azərbaycan xalqına qarşı müharibə cinayətləri törədilərkən, Azərbaycan xalqının mədəni irsi, təbiəti məhv edilərkən, infrastrukturu dağıdılarkən heç zaman səsini nəinki çıxarmayıb, əksinə, anti-Azərbaycan mövqeyi sərgiləyiblər. İndiki rəhbər xanım Samata Pauer isə erməni lobbisi ilə yaxınlığı ilə seçilən və qatı anti-Azərbaycan mövqelidir. Bu baxımdan həm onun, həm ABŞ Konqresinin hər iki palatasının bəzi üzvlərinin, Dövlət Departamentinin ayrı-ayrı vəzifəli şəxslərinin indiki ritorikası daha sərtdir və bu da Azərbaycanın əldə etdiyi zəfərin nəticəsidir". **O ki qaldı erməni mənşəli əhalinin zorla köçürülməsi, yəni "deportasiyası" ilə bağlı bu qurumun və ABŞ-ın bəzi dairələrinin hay-küyünə, STM-in icraçı direktoru hesab edir ki, bunun digər səbəbləri də var:** "Onlar Ermənistanı Rusiyadan qoparmaq və öz nüfuz dairəsinə daxil etmək istəyirlər. Bu isə olduqca çətin bir məsələdir, həmçinin regionda stabilliyə və sülhə xidmət etmir. Çünki Rusiya Ermənistanda çox möhkəmlənib və oranı tərk etmək fikrində deyil. Ermənistanın ağılsız rəhbərliyi isə bir-birinə zidd, heç bir nəticəsi olmayan qərarlar qəbul etməklə prosesi bir qədər də mürəkkəbləşdirirlər. Ermənistanın Beynəxalq Cinayət Məhkəməsinin Statutuna qoşulması da uzağı görməyən və hipotetik istəklərin nəticəsidir".

**Ekspertimiz hesab edir ki, bu halda Azərbaycan adekvat tədbirlər görməlidir:** "USAİD-in Azərbaycandakı fəaliyyətinə xitam verilməsinə hələlik real baxmıram. Amma münasibətlərin kəskinləşməsi fonunda bu da baş verə bilər. Bütün hallarda əvvəlki məhdudiyyətlərin ciddi nəticəsi olmadı, əksinə, USAİD-in birbaşa maliyyələşdirdiyi NED (sərt təsir donoru) Azərbaycanın daxilində və onun hüdudlarından kənarda anti-Azərbaycan layihələrini maliyyələşdirməkdə davam edir. "Yumşaq güc" və ya "yumşaq təsir" mexanizmləri isə öz işindədir. USAİD-in loqotipində "Amerika xalqından" sözləri yazılıb. Təəssüf ki, zəhmətkeş ABŞ xalqının vergiləri bu gün inkişafa və demokratiyaya deyil, xaosa, "məxməri" və "məxməri olmayan inqilablara", çaxnaşmalara sərf olunur". S.Məmmədov digər mühüm məqama da diqqət çəkdi: "Yeri gəlmişkən, ABŞ hökuməti ilə Azərbaycan hökuməti arasında hələ 90-cı illərdə imzalanmış müqaviləyə görə, ABŞ dövlət qrantları hər cür vergi və sosial ödəmələrdən azaddır".

**"Qarabağı könüllü tərk edən ermənilərlə selfi çəkdirib, hay-küy salan USAİD təmsilçiləri daxil olmaqla, bir sıra beynəlxalq təşkilat rəhbərləri bir dəfə də olsun Ermənistan işğalı nəticəsində etnik təmizləməyə məruz qalmış 1 milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünlərə nəinki baş çəkdilər, 30 il müddətində bir dəfə də olsun onların taleyindən danışmadılar". Bu fikirlər isə deputat Vüqar Bayramova məxsusdur. Millət vəkili ardınca bildirib:** "1993-cü ildə Qarabağda yerləşən kəndimiz Ermənistan tərəfindən işğal olundu və həyatımın 10 ilini bu yataqxanada keçirdim. 30 illik Ermənistan işğalı nəticəsində tamamilə dağıdılan kəndimizdən isə qalan sadəcə, xarabalıqlardır".

**❑ E.PAŞASOY, "Yeni Müsavat"**



# Ev növbəsindəki İdris kişi üçün şeir

Zamin HACI
zaminhaci@gmail.com

"Bedava yaşıyoruz, bedava;
Hava bedava, bulut bedava;
Dere tepe bedava..."
**(Orhan Veli-dən sitat)**

**Dünyada kədərli şeylər, şübhəsiz, çoxdur. Bunların sırasında işdən çıxarılmış prokuror, kabinetindəki dollar paçkalarını videoya çəkən müstəntiqlərə baxan icra hakimi, "Prado" almağa gücü çatmayan JEK müdiri, uşağına "Sedmoy"dakı "Mübarək" şadlıq sarayında toy çaldıran baş həkim, Canni de Byaziyə sual verən jurnalist və sairə bu kimi hadisələri, subyektləri qeyd etmək olar. Ancaq ən qüssəli bir şey var ki, onu çoxları ağlına gətirməz. Bu, bizim hökumət idarələrindəki ev növbəsi siyahılarıdır.**

Onlar əsasən açıq mənbələrdir, istəsən həmin ev arzulayan yoldaşların adını tapıb oxumaq olur. Cürbəcür, "rəngarəng" siyahılardır. Sovet dövründən çoxuşaqlı ailə kimi ev növbəsinə yazılanlar da var, Qarabağ müharibəsi əlilləri də. 44 günlük savaşın qaziləri, Çernobıl əlilləri, güzəştli mənzil istəyən saysız-hesabsız adamlar... "Saysız" ifadəsini özümdən yazmıram. Elə rayon icra hakimiyyəti var ki, onun ev növbəsində 3 minə yaxın adamın adı var. Bu 3 min nəfərin də hərəsinin adı qarşısında 3-4-5 və daha çox ailə üzvlərinin sayı. Məsələn, Yasamalda Qurbanov R.B. səkkiz nəfərlik ailə üzvləriylə 1993-cü ilin aprelindən ev gözləməkdədir. Abdullayev Ə. 1998-ci ildən ev növbəsindədir - 10 ailə üzvü var. Bunların ikisi də Qarabağ savaşı iştirakçısıdır.

Toplayanda, orta hesabla məlum olur rayonun 100 min sakinindən aşağısı 20 min nəfər ev arzulayır.

Lerikdə şəhid ailəsi Ağabəyim İmanquluyeva 2005-ci ildən ev növbəsindədir. Onun kimi 13 belə ailə var. Sonrakı illərdə növbəyə alınan ailələri saymağa yerimiz yoxdur.

İcra hakimiyyətlərimiz, maşallah, hamını çeşidləyib siyahıya alır. Məsələn, Cavid Qəniyev 2-ci qrup Qarabağ əlilidirsə, Sücəddin Şahbazov 2-ci qrup Çernobıl əlilidir. Araz Fərziyev isə, sadəcə, gözdən əlildir.

Şəmkirli şəhid ailəsi Zahir Səfərov 2008-ci ildən ev növbəsindədir. 28 kvadrat metrdə 9 nəfərlə yaşayır. 28-i 9-a bölün. Mənim kəsirlərdən orta məktəbdən zəhləm gedir.

Biləcəridə yaşayan şəhid ailəsi Bağırov İmranın ailə üzvlərinin sayı 19 nəfərdir. Amma ona baxanda Rəsulzadə qəsəbəsində yaşayan müharibə veteranı Samir Abdullayevin vəziyyəti yaxşıdır. Onun ev gözləyən ailə üzvləri 11 nəfərdir.

Elə adam var 1989-cu ildən ev gözləyir, eləsi var 1993-dən. 2000-ci ildən növbə tutanlar 2020-ci ildən növbəyə girənlərə necə baxırlar? Bu haqda tarix susur.

Ancaq Bakı şəhəri, Binəqədi qəsəbəsi, II mədən korpus 52 ev 194-də yaşayan, 1938-ci il doğumlu İdris Hüseynovun səbrinə dünyadakı bütün canlılar həsəd apara bilər. Niyə? Çünki adam 1972-ci ildən ev növbəsindədir! 51 ildir. Əlimizdə ona ev vermək haqda qərarın dəqiq nömrə və tarixi də var: 24 saylı, 24.10.1972.

Biləcəridə yaşayan, 1936-cı il təvəllüdlü Rəşid Səmədov İdris bəyə nisbətən daha ümidlidir - onu 1974-cü ildə ev növbəsinə alıblar.

Ev növbəsi siyahılarında "dünyasını dəyişib", "ailə tərkibi dəyişib", "evini qaşqınlar tutub" (belə də yazmışdılar: qaşqınlar), "başqa rayondan köçürülmə", "milli qəhrəman" kimi əlavə, dəqiqləşdirici və oxuyanı daha qüssəyə boğan qeydlərlə rastlaşırsan.

Ancaq hörmətli oxucuları daha çox yormaq istəmirəm, kim bilir, onların hansı, harda ev gözləməkdədir... Bizim işimiz həm də yol göstərməkdir. Fikrimcə, bu minlərlə vətəndaşımız boş oturub gözləməkdənsə vaxtında şeir yazmağı, hekayə cızmağı, qəlyan püskürtməyi öyrənməliydilər.

Hələ də gec deyil. Dəqiq bilmirəm, həmyerlim Rəşid kişi hələ sağdırmı, ancaq onun yerinə şeir yaza bilərəm:

"Ev siyahısı bu gün də var, yarın da,
Mən də onun ən ön sıralarında!"

Ümid edirəm əlaqədar orqanlar bu şeiri nəzərə alıb kişiyə nəhayət ev verərlər.

***P.S.** Sonradan baxdım ki, başlıq düz gəlmir, şeiri Rəşid kişi üçün yazmışam, evi isə İdris kişiyə istəyirəm. Bəlkə kimsə İdris kişinin əvəzinə hekayə yazsın, xeyirxah əməldir.*



# İsraillə HƏMAS, nəhayət, anlaşdı, Ərdoğandan Fələstin çağırışı - tək yol...

## HƏMAS girovları azad etmək şərtlərini açıqladı, Türkiyə lideri isə hesab edir ki, paytaxtı Şərqi Qüds olmaqla, Fələstin dövlətinin yaradılması qaçılmazdır; "Onlar Osmanlıya xəyanət ediblər, bununla belə, Ərdoğan ədalətli yanaşaraq..." - ekspert

**Dünyanın ən mürəkkəb problemlərindən biri, bəlkə də birincisi olan İsrail-Fələstin münaqişəsinin bitməsi yaxın illərdə mümkün görünməsə də, ən qısa zamanda bunun həlli üçün praqmatik ekspertlər, politoloqlar, liderlər yalnız bir yol olduğunu deyirlər - Fələstin dövlətinin yaranması. 1967-ci il sənədinə görə də bu məsələ baş tutmalıdır.**

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Əlcəzair prezidenti Əbdülməcid Tebbun ilə birgə mətbuat konfransı zamanı bildirib ki, Fələstin məsələsinin adil siyasi həlli olmadan bölgəmizdə daimi sülhün və sabitliyin təsis edilməsi mümkün deyil. Ərdoğan qeyd edib ki, 1967-ci ilin sərhədləri çərçivəsində paytaxtı Şərqi Qüds olan Fələstin dövlətinin yaradılması artıq qaçılmaz bir reallıqdır. Türkiyə prezidenti həmçinin girov düşən şəxslərin mübadiləsində ən qısa zamanda nəticə əldə ediləcəyinə ümid etdiyini vurğulayaraq, bu istiqamətdə danışıqların davam etdiyini də əlavə edib. Ərdoğan kifayət qədər ağıllı, praqmatik bir liderdir və onun söylədikləri həqiqətdir. Bəs Fələstin dövlətinin yaranması üçün konkret hansı addımlar atılmalıdır? Qərb buna imkan verəcəkmi?

**Yeri gəlmişkən, ABŞ dövlət katibi Antoni Blinken İsrail və HƏMAS arasında əldə olunan razılaşmaları əhəmiyyətli irəliləyiş adlandırıb.** "Bu razılaşma əhəmiyyətli irəliləyişlərə işarə edir. Lakin HƏMAS Qəzzada girovları azad etməyənə qədər biz sakitləşməyəcəyik", - o qeyd edib. Dövlət katibi amerikalılar da daxil olmaqla, 50 girovun azad edilməsinə dair razılaşmanı alqışlayıb. İsraillə razılaşma əldə edilərsə, HƏMAS-ın azad edəcəyi girovlar uşaqlar olacaq. CNN mənbələrinə istinadən belə məlumat yayıb. Mənbələrdən biri CNN-ə açıqlamasında HƏMAS-ın azad edəcəyi girovların demək olar ki, hamısının uşaq olacağını bildirib.

Digər mənbə isə qeyd edib ki, azad edilən girovlar arasında İsrail vətəndaşları və ikili vətəndaşlığı olan şəxslər də olacaq. Bundan əvvəl NBC telekanalı bildirmişdi ki, İsrail və HƏMAS nümayəndələri girovların azad edilməsi ilə bağlı ilkin razılığa gəliblər. İndi İsrail hakimiyyəti bunu təsdiqləməlidir. İlkin razılaşma Fələstinin radikal HƏMAS hərəkatının saxladığı 50 qadın və uşağın 150-yə yaxın fələstinli məhbusla dəyişdirilməsini nəzərdə tutur. Həmçinin razılaşmaya əsasən, tərəflər 4-5 gün müddətinə atəşkəs və Qəzza zolağına yanacağın çatdırılmasını elan edə bilərlər. Qeyd edək ki, oktyabrın 27-də quru əməliyyatı başlayandan bəri Qəzza zolağında HƏMAS-la döyüşlərdə İsrail ordusunun itkiləri 69 nəfərə çatıb.

Bu arada HƏMAS-ın israilli girovları azad etməsi ilə bağlı detallar açıqlanıb. İsrailin "Channel 12" telekanalı məlumat yayıb. Telekanalın məlumatına görə, razılaşmanın cümə axşamı və ya cümə günü (24 və ya 25 noyabr) həyata keçiriləcəyi gözlənilir. Qətərin vasitəçiliyi ilə imzalanan razılaşmaya əsasən, HƏMAS-ın nəzarətində olan 50 israilli İsrail həbsxanalarında olan 150 fələstinli məhbusun əvəzində azad ediləcək. Razılaşma həmçinin döyüşlərdə dörd günlük fasilə və yanacaq da daxil olmaqla, humanitar yardımla dolu 300 yük maşınının Qəzzaya daxil olmasını da əhatə edir. Razılaşma atəşkəsin uzadılmasına və hər iki tərəfin əlində olan daha çox uşaq və qadının potensial azadlığa buraxılmasına imkan verir. İsrail telekanalı azadlığa buraxılacaq israillilər arasında 30 uşaq, 8 ana və daha 12 qadının olacağını bildirib. İsrail tərəfi hər israillinin müqabilində üç fələstinli məhbusu azad edəcək. 4 günlük atəşkəs müddətində hər gün 12-13 israilli girovun azad ediləcəyi gözlənilir. Bildirilib ki, daha 20 israilli girov atəşkəsin 2 günlük uzadılması üçün azad oluna bilər. "İsrail ordusu Qəzzanın şimal hissəsinə nəzarəti davam etdirəcək. Yanacaq yalnız atəşkəs dövründə Qəzzaya buraxılacaq", - telekanal məlumat verib. İlk mərhələdə 10 israilli girovun azad ediləcəyi, bundan sonra isə fələstinli məhbusların birinci qrupunun azad ediləcəyi gözlənilir. İsrailin KAN radiosu isə rəsmi mənbəyə istinadən bildirib ki, azad ediləcək bütün girovlar İsrail vətəndaşıdır. "HƏMAS xarici vətəndaşları azad etsə, bu, razılaşmadan kənar olacaq. Atəşkəs dövründə hava hücumları sutkada 6 saat dayandırılacaq", KAN radiosu bildirib.

Belə vaxtda isə "Hizbullah"ın baş katibi Həsən Nəsrullah Beyrutda HƏMAS-ın nümayəndə heyətini qəbul edib. Məlumata görə, HƏMAS-ın nümayəndə heyətinə hərəkatın Qəzzadakı sədr müavini Xəlil əl-Həyya rəhbərlik edib. Bütün bu dinamika Fələstin üçün nə vəd edir? Sualı cavablandıran **siyasi ekspert Azad Məsiyevin "Yeni Müsavat"a bildirdiyinə görə, ümumiyyətlə, İsrail-Fələstin münaqişəsinin uzun tarixi var. Onun fikrincə, Yaxın Şərq hadisələrinə bir neçə prizmadan baxmaq lazımdır**: "Bu proseslərin Azərbaycan üçün mənəvi və siyasi tərəfləri var. Əvvəla, İsrail bizə 44 günlük müharibədə dəstək olub, Fələstin lideri Mahmud Abbas isə ermənilərin din xadimləri ilə görüşdə onlara dəstək ifadə edib. Bu iki məqamı Azərbaycan ictimaiyyəti hər zaman qiymətləndirir. Amma İsrail və HƏMAS-ın arasında gedən əməliyyatlarda heç bir beynəlxalq normalar gözlənilmir və mülki əhali hədəf alınır, uşaqlar öldürülür, bütün mənəvi hədlər aşılır. Təbii ki, bu münaqişənin həlli üçün Fələstin dövləti yaradılmalıdır. Sadəcə, bu məsələnin reallaşmamasında ərəb ölkələrinin və Fələstinin də günahı az deyil. Beynəlxalq hüquqa əsasən Fələstin dövləti yaradılmalıdır. Əfsuslar olsun ki, böyük güclər buna mane olublar". **Ekspert hesab edir ki, hazırkı reallıqlar bu problemin həllini zəruri edir:** "Sadəcə, ərəb ölkələrinin qrup maraqları milli maraqlarından üstün olub deyə Fələstin dövlətinin yaradılmasına dəstək ola bilmirlər. Burada OPEC ölkələri olan ərəb dövlətləri bu imkandan da yararlana bilərlər. Onu da deyim ki, fələstinlilər Osmanlı imperiyasının dağılmasında iştirak edib və türklərə xəyanət edərək ingilislərə işləyiblər. Bununla belə, Türkiyə prezidenti ədalətli yanaşaraq Fələstin dövlətinin qurulması vaxtının çatdığını bildirir".

❑ **Emil SALAMOĞLU,
"Yeni Müsavat"**

**Xarici təsir dairələrinin müdaxiləsi ilə Ermənistanın boyun qaçırması səbəbindən 2023-cü ilin noyabrınadək sülh müqaviləsi imzalanması mümkün olmadı. Hansı ki, ilin sonunadək buna böyük ümidlər vardı. Lakin İrəvanın özünü dalan dövlətə çevirmək niyyətində qalması bunu mümkünsüz edib. Qarşıdakı 1 ay ərzində sülh sazişi imzalanması da o qədər inandırıcı görünmür.**

# Sülh danışıqları üçün optimal məkan və şərt - sərhəddə, ikitərəfli...

## Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün hər hansı əngəl olmadığını bəyan etdi




Ancaq bununla belə, bu prosesdə növbəti dəfə hərəkətlilik yaranıb.

İrəvan Bakının sülh sazişi üzrə növbəti təkliflərinə, nəhayət, iki ayyarım sonra cavab verib.

Ermənistan Xarici İşlər Nazirliyi (XİN) məlumat yayaraq bildirilib ki, baş nazir Nikol Paşinyanın noyabrın 18-də Azərbaycanla sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün diplomatik səylərin gücləndirilməsi ilə bağlı açıqladığı bəyanatdan sonra İrəvan sülh sazişi üzrə altıncı təkliflər paketini Azərbaycan tərəfinə təqdim edib.

"Ermənistan əvvəllər elan edilmiş prinsiplər əsasında münasibətlərin normallaşdırılmasına dair sənədi yekunlaşdırmaq və imzalamaq öhdəliyinə sadiqdir", - Ermənistan XİN-dən bildirilib.

Bundan dərhal sonra Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistana sülh müqaviləsinin bağlanması üçün danışıqları bərpa etmək çağırışı ilə bağlı mətbuata açıqlama verdi. **Açıqlamada qeyd edilir:** "Ermənistanın Azərbaycanın sülh müqaviləsi layihəsi ilə bağlı təkliflərinə cavab verməsinin təqribən 2 ay yarım müddət çəkməsi prosesi ciddi şəkildə yubadıb. Sülh danışıqlarındakı bu durğunluq regionda sabitliyə və firavanlığa töhfə vermir.

Azərbaycan sülh müqaviləsinin mümkün qədər tez tamamlanması üçün Ermənistanla ikitərəfli əsasda birbaşa danışıqlara hazırdır. Biz inanırıq ki, iki ölkə gələcək münasibətləri barədə qərarı birlikdə verməlidir.

Qarşılıqlı məqbul məkanın seçilməsi və ya dövlət sərhədində görüş barədə qərar verilməsi də daxil olmaqla, sülh prosesinin davam etdirilməsinə görə iki ölkə məsuliyyət daşıyır.

Biz Ermənistan tərəfini yeni lüzumsuz yubatmalara yol verməməyə çağırır və danışıqların tezliklə başlanması üçün onların bu çağırışa müsbət cavab verəcəyinə ümid bəsləyirik".

**XİN-dən həmçinin bildirilib:** "Qarşılıqlı məqbul məkanın seçilməsi və ya dövlət sərhədində görüş barədə qərar verilməsi də daxil olmaqla, sülh prosesinin davam etdirilməsinə görə iki ölkə məsuliyyət daşıyır. "Biz Ermənistan tərəfini yeni lüzumsuz yubatmalara yol verməməyə çağırır və danışıqların tezliklə başlanması üçün onların bu çağırışa müsbət cavab verəcəyinə ümid bəsləyirik".

Azərbaycan XİN-in 21 noyabrda yaydığı bu bəyanata Ermənistan XİN 22 noyabrda cavab verib. Açıqlamada deyilir ki, Ermənistan Azərbaycanla danışıqlara hazırdır. Bəyanatda qeyd olunur ki, rəsmi İrəvan Ermənistanın Azərbaycanla münasibətlərin nizamlanması və Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olması naminə səy göstərmək üçün siyasi iradəsini bir daha təsdiq edir. Ermənistan XİN-dən bildirilib ki, danışıqlar prosesinin dalana dirənməməsi və regionda davamlı sülhə nail olmaq üçün Ermənistan sazişlə bağlı öz müşahidələrini Azərbaycana çatdırıb: "Biz yenidən danışıqlarda iştirak etməyə hazırıq".

Prezident İlham Əliyev isə noyabrın 22-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokertini qəbul edərkən bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün artıq hər hansı əngəl yoxdur. Dövlət başçısı ölkəmizin regional sülh gündəliyini dəstəklədiyini, sülh müqaviləsi və iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün Azərbaycanın Ermənistanla dialoqa hazır olduğunu vurğulayıb.

Siyasi analitiklər hesab edir ki, lokal antiterror tədbirlərindən sonra bölgədə yaranmış tam yeni reallıqlar sülh prosesinin məhz vasitəçilərsiz olmadan aparılmasını şərtləndirir. Yəni həm işğal dövrünün danışıqları, həm Qarabağın azadlığından sonra aparılan müzakirələr tamamilə sübut edib ki, regiona aidiyyəti olmayan güclərin regional məsələlərin həllində iştirakı əks-effekt verir. Daha dəqiqi, onlar ancaq pozuculuqla məşğul olurlar. Bu baxımdan, Azərbaycanın sülh danışıqları üçün təqdim etdiyi variant optimal yoldur - danışıqlar sərhəddə və ikitərəfli aparılmalıdır.

Bəs havadarları, eyni zamanda bölgədə sülh istəməyən Qərb dairələri Ermənistana bu imkanı, icazəni verəcəkmi? Prosesi bu şəkildə aparmaq mümkündürmü?

**Politoloq Elxan Şahinoğlu** bildirdi ki, ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller gündəlik brifinqdə Vaşinqtonun Ermənistanla Azərbaycan arasında birbaşa müzakirələrə başlanılmasının tərəfdarı olduğunu bəyan edib. Amerikalı diplomat uzunmüddətli razılaşmanın əldə edilməsi üçün iki ölkənin üzbəüz danışıqlar aparmasının vacib olduğunu bildirib. Qərbin danışıqların başlanmasını istədiyini digər bir neçə hadisə də təsdiqləyir: "Cənubi Qafqaza, o cümlədən Ermənistana və Azərbaycana səfəri davam edən Böyük Britaniyanın Avropa naziri Leo Dokerti də eyni sözləri söyləyib. Leo Dokerti deyib ki, sülh və sabitliyin uzunmüddətli nizamlanmasına nail olmaq üçün Ermənistan və Azərbaycan arasında birbaşa sülh danışıqlarına təcili ehtiyac var.

Vaşinqtonun və Londonun birbaşa danışıqlarla bağlı mövqeyi rəsmi Bakının mövqeyi ilə üst-üstə düşür. Prezident İlham Əliyev də Ermənistanla birbaşa danışıqlar ideyasını dəstəkləyir. Həqiqətən uzaq Vaşinqtona, Brüsselə və ya Moskvaya gedib bu ölkələrin vasitəçiliyi ilə danışıqlar aparmaqansa, Gürcüstanın paytaxtı Tiflisdə müzakirələrin başlanılması hamı üçün faydalı olar. Azərbaycan və Ermənistan hər tərəfdən 5 və ya 10 nəfərin iştirakı ilə mütəxəssislərdən formalaşan birgə qrup yaratmalı və bu qrup Tiflisdə daimi əsasda müzakirələrə başlamalıdır. Əks halda, Bakı İrəvana təkliflərini göndərəcək, aylar sonra onlar cavab göndərəcək və bu proses yenidən təkrarlanacaq, nəticə də olmayacaq. Daimi komissiya sülh sazişi, sərhədlərin müəyyənləşdirilməsi və dəhliz mövzusunda müzakirələr aparmalı, yekun sənədi iki ölkənin liderinə təqdim etməlidir".

**Siyasi şərhçi Əli Orucov isə bildirdi ki, 2020-ci ildə Azərbaycanın işğalçı Ermənistanı məğlub etməsindən dərhal sonra rəsmi Bakı İrəvanla sülh bağlamaq təklifini irəli sürdü və hər iki tərəfin maraqlarına uyğun şərtlər müəyyənləşdirdi:** "Paşinyan hakimiyyəti əvvəlcə bu təkliflə prinsipcə razılaşsa da, havadarlarının təzyiqi ilə dolayı yolla bundan boyun qaçırdı. Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin hüquq və təhlükəsizliyi üçün beynəlxalq və Azərbaycanın qanunlarında öz əksini tapan təminat istədi. Təbii ki, bu təklif əslində Brüsseldən gəlmişdi. Sentyabrın 19-20-də həyata keçirilən antiterror əməliyyatından sonra vəziyyət tam dəyişdi, erməni sakinlər Azərbaycanın dəfələrlə səsləndirdiyi reinteqrasiya təkliflərini qəbul etməyərək könüllü olaraq ərazilərimizi tərk etdilər. Bununla da rəsmi İrəvanın irəli sürdüyü və Qərbin də dəstəklədiyi etnik ermənilərin hüquq və təhlükəsizliyinin beynəlxalq təminat şərtləri aradan qalxmış oldu. İndi Azərbaycanla Ermənistan arasında sülh bağlanmasını əngəlləyən nə bəhanə qalıb, nə də ciddi səbəb. Doğrudur, Azərbaycanın Qazax rayonunun bir neçə kəndi və Naxçıvanın Kərki kəndi hələ də Ermənistanın işğalı altında qalır. Şübhə etmirəm ki, rəsmi Bakı qısa müddətdə bu məsələnin də ədalətli həllinə nail olacaq. Sərhədlərin delimitasiyası və demarkasiyası barədə Ermənistan pozuculuq etməsə, düşünürəm ki, sülh prosesini uğurlu şəkildə irəli aparmaq olar. Lakin regionda maraqları olan Qərbin, xüsusən də Fransanın və Rusiyanın, eləcə də İranın bu məsələlərə baxışlarını mütləq nəzərə almaq lazımdır. Heç kəsə sirr deyil ki, nə Paris, nə Moskva, nə də Tehran Azərbaycanın regionda üstün mövqeyini və Türkiyənin burada möhkəmlənməsini istəmir. Təsadüfi deyil ki, Qərb hər vəchlə çalışır ki, Ankara Ermənistan-Azərbaycan arasında normallaşma prosesinə buraxılmasın. Lakin Türkiyənin iştirakı olmadan bu prosesin ciddi müsbət nəticələr verəcəyinə inanmaq da sadəlövhlükdür. Azərbaycan xarici siyasətində müstəqil dəst-xətt yürüdə bilir. Odur ki, Bakı ddımlarını özü məyyənləşdirərək, Ermənistanla ikili formatda danışıqlar aparma imkanına malikdir və vasitəçisiz, moderatorsuz ikili təmaslara da hazırdır. Amma Ermənistan bu müstəqillikdən kənardır. İrəvan hazırda dilemma arasında qalıb və hazırkı dönəmdə Parisin diqtəsi ilə hərəkət etmək məcburiyyətindədir".

**Ekspert hesab edir ki, Paşinyan hökumətini daxili durum və müxalifət də təhdid edir. Hakimiyyət kövrəkdir və ciddi bir silkələnmədən yıxıla bilər:** "Bir məsələni də vurğulayım ki, hazırkı durumda Ermənistana sülh çox vacibdir və kommunikasiyaların açılmasına, blokadadan çıxmasına can atır. İqtisadi, siyasi və hərbi asılılığını Moskvadan xilas etməyə çalışır. Bunların reallaşması isə Türkiyə və Azərbaycan üzərindən keçir. Təbii ki, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına kənar güclərin və dövlətlərin qoşulması faydalı deyil. Biz bunu 30 il ərzində ATƏT-in Minsk Qrupunun simasında gördük. Problem ondan ibarətdir ki, Paşinyan hökuməti Azərbaycandan fərqli olaraq himayədarsız addım atmır və prosesi mürəkkəbləşdirməyə, Bakı üzərinə beynəlxalq təzyiqləri artırmaqla güzəştlər əldə etməyə çalışır. Bu xəttin isə yanlışlığı dəfələrlə isbat olunub və Bakını təzyiqlərlə güzəştlərə vadar etmək indiki halda mümkün deyil. Həm də ona görə ki, Azərbaycanın həm beynəlxalq hüquq və prinsiplərlə, həm də regional siyasi-hərbi-iqtisadi baxımdan mövqeyi çox güclüdür. Balansın kəskin şəkildə Bakının xeyrinə olduğu indiki dönəmdə zənn etmirəm ki, İrəvan Bakı ilə birbaşa ikitərəfli sülh danışıqlarına getsin. Mən Paşinyanı buna hazır görmürəm. Lakin sülh danışıqlarının da effektiv başqa variantı da yoxdur. Fikrimcə, sülh məsələsinə də Ermənistan beynəlxalq təminat istəyəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 210 (8346) 23 noyabr 2023

**Azərbaycandan Avropaya elektrik enerjisi nəql edəcək kabelin çəkilməsi layihəsinin iştirakçıları arta bilər. Özü də Xəzərin o tayındakı ölkələrin hesabına. Bu il noyabrın 14-də Bakıda "Mərkəzi Asiyadan Azərbaycan vasitəsilə elektrik enerjisinin ixracı perspektivləri" adlı tədbir keçirilib. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov X (keçmiş Twitter) hesabında yazıb ki, tədbirdə Özbəkistan və Qazaxıstan elektrik enerjisinin Avropaya nəqli imkanları müzakirə edilib: "Azərbaycanın energetika naziri, həmkarım Pərviz Şahbazovla birlikdə iştirak etdiyimiz Azərbaycan, Özbəkistan və Qazaxıstanın iqtisadiyyat və energetika sahələri üzrə məsul nazirlərinin üçtərəfli görüşü iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi baxımından əhəmiyyətli olub. Ölkələrimiz arasında bərpa olunan enerjiyə fokuslanan tərəfdaşlığın inkişafı və Mərkəzi Asiya ölkələrindən elektrik enerjisinin nəqli imkanlarını müzakirə etdik".**



# Xəzərin dibi ilə elektrik kabeli çəkiləcək - mühüm proje

## Üç türk dövlətinin ilginc planı; **İlham Şaban:** "Bu, çox real layihədir"

Daha sonra bu məsələ energetika naziri Pərviz Şahbazovun Budapeştdə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto və energetika naziri Csaba Lantos ilə görüşlərində müzakirə olunub. Nazirliyin yaydığı məlumata görə, xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşdə yaşıl enerjinin inkişafı və ötürülməsi üzrə nazirlər iclasının nəticələrindən məmnunluq ifadə edilib və Birgə Müəssisənin yaradılması ilə bağlı proseslərin sürətləndirilməsinin vacibliyi qeyd olunub. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin səmərəli layihə kimi reallaşmasında Azərbaycandan böyük həcmdə yaşıl enerjinin ötürülməsinin mühüm rol oynayacağı vurğulanıb. Həmçinin Özbəkistan və Qazaxıstanın Mərkəzi Asiyadan elektrik enerjisinin bu dəhliz vasitəsilə Avropaya ötürülməsində maraqlı olduqları diqqətə çatdırılıb.

Qeyd edək ki, 2022-ci ilin dekabrında Buxarestdə i "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Peter Siyartonun verdiyi məlumata görə, Avropa Komissiyası sazişdə nəzərdə tutulan Qara dənizin dibi ilə 1195 kilometrlik kabelin çəkilişi üçün 2,3 milyard avro vəsait ayırıb. Azərbaycandan Avropaya elektrik enerjisi ötürəcək sualtı kabel xəttinin çəkilməsi layihəsinin texniki-iqtisadi əsaslandırmasını İtaliya şirkəti hazırlayır. Dünya Bankının ayırdığı 2,5 milyon avro həsabına maliyyələşən əsaslandırma 2023-cü ilin sonuna hazır olacaq. 2024-cü ildən etibarən layihənin icrasına başlanması və 3-4 ilə yekunlaşdırılması nəzərdə tutulur.

Bu ilin iyulunda sazişin iştirakçısı olan dörd ölkə arasında birgə müəssisənin yaradılmasına dair Anlaşma Memorandumu imzalanıb.

Son gəlişmələr göstərir ki, layihəyə Qazaxıstan və Özbəkistan da qoşulmağa maraq göstərir. Bu isə layihənin daha da genişlənərək, Asiyanı Avropaya birləşdirəcək nəhəng beynəlxalq layihəyə çevrilməsi demək ola bilər. Həm Qazaxıstan, həm də Özbəkistan Mərkəzi Asiya regionunun aparıcı ölkələridir. Azərbaycan hər iki dövlətlə həm Transxəzər beynəlxalq nəqliyyat dəhlizi layihəsi, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində çox səmərəli əməkdaşlıq münasibətlərindədir. Bu baxımdan, dost ölkələrin daha bir layihədə birgə çalışması ölkəmiz üçün daha səmərəli mühitin yaranması demək olar.

Aydındır ki, Qazaxıstan və Özbəkistandan enerjinin Azərbaycana çatdırılması üçün Xəzər dənizinin dibi ilə kabel xəttinin çəkilməsi lazım gələcək.

**Enerji məsələləri üzrə ekspert İlham Şabanın fikrincə, belə bir variant kifayət qədər realdır:** "Qaz xəttinə baxmayın, onunla bağlı siyasi-iqtisadi maraqlar çox yüksəkdir. Amma Qazaxıstan sahillərindən Xəzərin bu tayına enerji ötürəcək kabelin çəkilməsi çox daha real və icrası mümkün olan məsələdir. Faktiki olaraq, bu gün Qazaxıstanın Aktau limanından Bakı şəhərinə optik kabelin çəkilməsi layihəsi tam hazır vəziyyətdədir: kabelin haradan keçəcəyi, ötürücülük gücü, layihə dəyəri və sair tam işlənib hazırlanıb. Yaxın 1-2 ildə onun çəkilməsi başa çatdırılacaq. Bu halda, nəyə görə onun yanı ilə bir dənə də elektrik enerjisi ötürən kabel çəkilməsin ki? Özü də deyim ki, Xəzərin dibi ilə kabel xəttinin çəkilməsi sahəsində Azərbaycanın təcrübəsi çoxdan var. 20-ci əsrin əvvəllərində Türkmənistanın Krasnovodsk - indiki Türkmənbaşı limanından Bakıya sualtı teleqraf xətti çəkilib. Bu xətt uzunluğuna görə dünyada sualtı çəkilən ən uzun xətt olub. Sonradan bu xətt yenilənib, indi də fəaliyyət göstərir".

**Ekspertin sözlərinə görə, Azərbaycana məxsus Neft Daşlarında istehsal olunan elektrik enerjisi 21-22 km aralıdakı platformalara sualtı kabellərlə çatdırılır:** "Yəni bizim bu sahədə təcrübəmiz var. Lakin min meqavattlarla enerjini ötürəcək kabelin çəkilməsi üçün daha böyük və müasir texnologiyalara ehtiyac olacaq və yəqin ki, xarici şirkətlər də layihədə iştirak edəcəklər. Bu layihə bizim üçün çox səmərəli ola bilər. Ötən ilin dekabrına qədər kiminsə ağlına gəlməzdi ki, Azərbaycan Avropaya elektrik enerjisi ixracatçısına çevriləcək. Amma dünən (noyabrın 21-də) Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya nazirlərinin görüşündə məlum oldu ki, artıq bunu reallığa çevirəcək layihənin icrasına başlanır. Azərbaycan Avropaya ixracı təmin etmək üçün böyük yaşıl enerji layihələrinin icrasına başlayır. Əgər Xəzərin o tayının enerjisini də bura əlavə etmək mümkün olarsa, bu, lap yaxşı olar. Yeni Azərbaycan bundan uduzmaz".

Qeyd edək ki, hazırda Qazaxıstanın enerji təminatı daxili tələbatı ödəməyə ancaq çatır. 1 yanvar 2023-cü il tarixinə ölkədə elektrik enerjisi istehsalı 204 elektrik stansiyası (74 ənənəvi, 130 bərpa olunan enerji) tərəfindən həyata keçirilir. Qazaxıstanda elektrik stansiyalarının ümumi quraşdırılmış gücü 24523,7 MVt, mövcud gücü 19024,3 MVt təşkil edir. Eyni zamanda, bərpa olunan enerji mənbələrinin ümumi quraşdırılmış gücü 2388 MVt, o cümlədən külək elektrik stansiyaları - 957 MVt, günəş elektrik stansiyaları - 1149 MVt, su elektrik stansiyası (bundan sonra - SES) - 280 MVt, bioqaz elektrik stansiyaları - 2 MVt-dır.

2022-ci ildə Qazaxıstanda elektrik enerjisi istehsalı 112865,9 milyon kilovatsaat (2020-ci ildə - 108085,8 milyon kilovatsaat, 2021-ci ildə - 114447,9 milyon kilovatsaat), elektrik enerjisi istehlakı isə 112 944,6 milyon kilovatsaat (2020-ci ildə 107 344,8 milyon kilovatsaat, 2021-ci ildə 113 890,3 milyon kilovatsaat) təşkil edib. İstehsal güclərinin çatışmazlığı ilə əlaqədar elektrik enerjisi və enerjinin Proqnoz balanslarına (20 yanvar 2023-cü il tarixli 20 nömrəli Sərəncamla təsdiq edilmiş) əsasən 2023-2029-cu illərdə kəsir proqnozlaşdırılır. Yeni istehsal gücləri istifadəyə verilməsə bu kəsir 2023-cü ildə - 0,8 milyard kilovatsaat, 2024-cü ildə - 1,6 milyard kilovatsaat, 2025-ci ildə - 1,6 milyard kilovatsaat, 2028-ci ildə - 1,3 milyard kilovatsaat, 2029-cu ildə - 5,5 milyard kilovatsaat olacaq.

Qazaxıstanda elektrik enerjisinin 70 faizdən çoxu kömürdən, 15 faizi su ehtiyatlarından, 10 faizi qazdan, 5 faizə yaxını isə neft məhsullarından əldə olunur.

Qazaxıstan hökumətinin qəbul etdiyi strategiyaya əsasən, 2029-cu ilədək ölkədə enerji istehsalı, paylanması və satışı tamamilə bir-birindən ayrılmaqla dövlətsizləşdiriləcək, bərpa olunan enerji mənbələrindən istehsalın daxili tələbatı tam qarşılayacaq səviyyəyə çatdırılması və ixraca başlanması üçün xarici investorlar cəlb olunacaq.

Özbəkistana gəlincə, 2022-ci ildə bu ölkədə 74,3 milyard kilovatsaat elektrik enerjisi istehsal edilib. Bu, əvvəlki illə 3 milyard kilovatsaat və ya 4,2 faiz çoxdur. İl ərzində istehlakçılara 62,4 milyard kilovatsaat elektrik enerjisi verilib ki, bu da əvvəlki ildəkindən 3,2 milyard kilovatsaat və ya 5,5 faiz çoxdur. Göstəricilərin artımı ümumi gücü 1374 MVt olan altı istilik elektrik stansiyasının və 100 MVt gücündə bir günəş elektrik stansiyasının (GES) işə salınması ilə bağlıdır. Bu 7 stansiya ildə 11 milyard 300 milyon kilovatsaat elektrik enerjisi istehsal edir ki, bu da hər il 1 milyard 503 milyon kubmetr təbii qaza qənaət etməyə imkan verir. Bundan əlavə, nazirliklərin, idarələrin və yerli özünüidarəetmə orqanlarının binalarında ümumi gücü 49 MVt olan günəş panelləri quraşdırılıb.

2023-cü ilin yanvar-oktyabr aylarında Özbəkistanda 63,02 milyard kilovatsaat elektrik enerjisi istehsal edilib. Özbəkistanın Statistika Agentliyinin məlumatına görə, 2022-ci ilin eyni dövrü ilə müqayisədə elektrik enerjisi istehsalının artımı 5,1faiz təşkil edib.

Son 4 ildə Özbəkistan 10,1 milyard dollar dəyərində 25 müasir elektrik stansiyasının tikintisinə dair müqavilələr bağlayıb və onlar 2026-cı ilin sonunadək istifadəyə veriləcək. Ümumi gücü 11,9 min MVt olan 25 elektrik stansiyasından doqquzu istilik, doqquzu günəş, yeddisi isə külək enerjisi ilə işləyəcək. Agentlikdən bildirildiyinə görə, onların istismara verilməsi Özbəkistanın enerji sisteminin mövcud gücünün 60 faiz artmasına səbəb olacaq. Buraya 4,3 min MVt gücündə yaşıl elektrik stansiyalarının işə salınması da daxildir. İri günəş və külək elektrik stansiyaları 2,1 min MVt təşkil edəcək. Günəş panellərinin quraşdırılacağı evlər, müəssisələr və sosial obyektlər üçün - 1,2 min MVt.

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 210 (8346) 23 noyabr 2023

# Aşağı miqdarda narkotikə görə cəza yumşaldılır - hansı nəticəni gözləyək...

**Narkotiklərin xeyli miqdarından aşağı olan miqdarı şəxsin inzibati məsuliyyətə cəlb edilməsinə əsas verəcək. Bu, Milli Məclisin ötən gün keçirilən iclasında müzakirəyə çıxarılan "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.**

## Mahmud Hacıyev: "Əks-effekt verməyəcək, amma neqativ hallar arta bilər, ona görə..."



Layihəyə əsasən, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının miqdarı təmiz və qarışıq vəziyyətində ayrılıqda müəyyənləşdiriləcək. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə əsas verən narkotik vasitələrin, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) və psixotrop maddələrin, habelə onların prekursorlarının xeyli, külli və xüsusilə külli miqdarları müvafiq qanunlarla müəyyən olunacaq. Narkotik vasitələrin, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) və psixotrop maddələrin, habelə onların prekursorlarının müvafiq qanunlarla müəyyən edilmiş xeyli miqdarından aşağı olan miqdarı şəxsin inzibati məsuliyyətə cəlb edilməsinə əsas verən az miqdardır.

Qeyd edək ki, qüvvədə olan qanuna görə, narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı şəxsi istehlak üçün mümkün, hər bir narkotik vasitənin və ya psixotrop maddənin ayrı-ayrılıqda birdəfəlik istehlakı həcminə əsasən müəyyən edilir. Şəxsi istehlak üçün nəzərdə tutulan narkotik vasitələrin və psixotrop maddələrin miqdarı onların təmiz və qarışıq vəziyyətində ayrılıqda müəyyən olunur. Qazanc əldə etmək məqsədilə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilməsi, belə şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarı, habelə onların külli miqdarı müəyyən edilir. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq və külli miqdarı, habelə onların prekursorlarının və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) xeyli və külli miqdarı müvafiq qanunlarla müəyyən edilir.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.

Qeyd edək ki, narkotiklərin aşağı miqdarı ilə bağlı uzun müddətdir müzakirə gedirdi. Bir qisim isə hesab edir ki, qaydaların yumşadılması əks-effekt verə bilər, bundan sui-istifadə halları arta bilər. Ekspertlər məsələyə necə yanaşır? Dünya təcrübəsi necədir?

**Sabiq polis rəisi, hüquqşünas Mahmud Hacıyev** mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, neçə illər ərazində istər dünya miqyasında, istərsə MDB məkanında, istərsə də Azərbaycanda narkotiklə əlaqədar qanunlara çox dəyişikliklər, əlavələr edilib: "Bunların da heç biri effekt vermir. Bu elə bir bəladır ki, kimsə desə də belə bir qanun qəbul ediləcək, bu bəlanın birdəfəlik kökü kəsiləcək, miqdarı minimuma endiriləcək, bu mümkün deyil. Bunlar, sadəcə, cəfəngiyyatdır. Bu dünya miqyasında mümkün deyil, günü-gündən də inkişaf edir. Yaxşı olar ki, dünya üzrə bütün mühafizə orqanları yaxşı işləsinlər, bu minimuma düşsün. Mən neçə il bundan əvvəl də demişdim ki, narkotiklə, əməliyyat işləri ilə əlaqədar qanuna əlavələr ediləndə yaxşı olar ki, orada təcrübəsi olan praktiki işçilərin də fikirlərini öyrənsinlər. Məsələnin nəzəri hissəsini bilmək ayrı, təcrübə bir başqadır. Milli Məclisdə oturanların heç biri nə əməliyyat, nə istintaq, nə də narkotiklərə qarşı mübarizə üzrə xidmətində işləməyiblər. Yeni təcrübədə elə incə məsələlər var ki, onu onlar bilmir. Ona görə çox vaxt çaşqınlıq yaranır ki, bu qəbul edilsə, birdən əks-effekt verər. Əks-effekt verməməsi üçün bu sahədə təcrübəsi olan adamlar cəlb edilməlidir. Oturublar orada, dünya praktikasını öyrənirlər, İsveçrədə belədir, Latın Amerikasında elədir, bizdə də bu cür edək. Bu doğru deyil, məsələyə kompleks yanaşmaq lazımdır. Burada həm nəzəriyyədən, həm də təcrübədən yararlanmaq lazımdır. Həm sosioloqlardan, həm psixiatrlardan, həm hüquqşünaslardan rəy öyrənmək lazımdır. Düzdür, qanuna edilən əlavələr əks-effekt verməyəcək, amma neqativ hallar arta bilər. Niyə? Misal üçün, orada miqdar məsələsi var, bu sovet dövründə də var idi. O zaman sərhədlər bağlı idi, onda kokaindən, geroindən, psixotrop maddələrdən, tiryəkdən söhbət gedə bilməzdi. Ancaq otun tərkibində narkotik olurdu, onu papirusda çəkirdilər. Hərdənbir, çox nadir hallarda tiryəklə bağlı olurdu, onda da az qala aləm bir-birinə dəyirdi ki, filan yerdə tiryək tapılıb. Orada da miqdar məsələsi var idi, misal üçün, otla qəbul olunan narkotiklərdə müəyyən miqdar məsələsi qoyulmuşdu. Həmin miqdardan aşağı olanda cinayət tərkibi yaratmırdı. Onda heç İnzibati Xətalar Məcəlləsi də yox idi, sonradan yarandı. İndi həmin miqdar məsələsidir, psixotrop maddə var ki, həddən artıq güclü təsir edir".

**Ekspert əlavə edib ki, eləcə də psixotrop maddələr beyini iflic edir və insanın hərəkətini tənzimləməyə imkan vermir:** "O cür yüksək dərəcədə təsir edən narkotiklərdə miqdar nəzərə alınmasa daha yaxşı olar. Elə ucdantutma hamını həbsə atmaq, məgər bu işin həllidir? Qətiyyən deyil. Miqdar məsələsinə baxmaq olar, həddən artıq aşağı miqdarda olanda İnzibati Xətalar Məcəlləsini tətbiq etmək olar. Miqdardan bir az yüksək olanda cinayət qanunvericiliyini tətbiq etmək olar. Həmişə miqdarla bağlı anlaşılmazlıq olur. Reallıq var da. Kimdirsə, birinci, ikinci səfər iş üstündə yaxalanır, qohum-əqrəba, dost-tanış əl-ayağa düşür. "Miqdardan beş-altı qram çoxdur da, nə edək bir az aşağı olsun" deyib, "müsbət" həllini tapırlar. Neqativ hallar bax bunlardır. İndi burada 5 qram əskik yazsaq, bu inzibati, 7 qram çox olsa, cinayət qanunvericiliyinə düşür. Həmin nüanslar keçmişdə olub, yenə olacaq. Bunları aradan qaldırmaq mümkün deyil. Mərkəzi Avropa ölkələrində belədir deyə biz özümüzü onlara calaya bilmərik ki. Hər yerin özünəməxsus, müəyyən xarakterik xüsusiyyətləri var. Mərkəzi Avropada otla qəbul olunan narkotik maddələrə cinayət işi başlamırlar. Heç inzibati qanunvericilik də tətbiq etmirlər. Bunlardan ötrü xüsusi yerlər ayrılıb".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**



## DİN vətəndaşlara SMS göndərərək xəbərdarlıq edib

**Daxili İşlər Nazirliyi vətəndaşların dələduzluğa məruz qalmamaları ilə bağlı məlumatlandırılması üçün mobil operatorlar vasitəsilə onlara SMS məlumatlar göndərir.**

"APA-Economics"in xəbərinə görə, SMS mesajında vətəndaşlara cərimə, kommunal və digər ödənişlərlə bağlı internet seqmentlərində və sosial şəbəkələrdə yaradılan saxta səhifələrə etibar etməmələri, rəsmi təşkilatları təqlid edə biləcək mesajlar, axtarışlar və ya məzmunlara qarşı diqqətli olmaları, dövlət qurumlarının, eləcə də bankların adından yaradılan saxta səhifələrə pul vəsaitlərini ödəməmələri tövsiyə olunur.

"Belə hallarla qarşılaşdıqda dərhal Daxili İşlər Nazirliyinin "102" Xidmətinə və ya onun sosial şəbəkə hesablarına müraciət edə bilərlər. Vətəndaşlara müxtəlif cinayət işlərinin iştirakçısı olmaqları haqqında göndərilən və ödəniş tələb olunan SMS-lərin, elektron poçt məlumatlarının və veb səhifələrdə çıxan bildirişlərin dələduzluq əməli olduğunu bildirirk", - deyə bildirilib.

Vətəndaşlara bu cür hallarla rastlaşdıqda, linklərə daxil olmamaq, saxta veb-səhifələrdə ödəniş etməmək tövsiyə edilib.

Elektron Təhlükəsizlik Xidmətindən də "APA-Economics"in sorğusuna cavab olaraq bildirilib ki, qurum tərəfindən mütəmadi olaraq sosial media hesabları və media vasitəsilə kiberdələduzluq halları ilə bağlı vətəndaşlara xəbərdarlıq edilir: "Belə ki, kiberdələduzlar tərəfindən böyük şirkətlərin və qurumların adından asan qazanc əldə etməyi vəd edən iş təklifi, saxta investisiya layihələri, saxta lotereyalar və kampaniyalar barədə mesajlar göndərilir. Bununla bağlı ETX vətəndaşlara diqqətli olmağı, şübhəli linklərə daxil olaraq öz fərdi və bank kartı məlumatlarını təqdim etməməyi tövsiyə edir".

"Həmçinin hər hansı qurum adından bu cür mesajlar aldıqda həmin məlumatın dəqiqliyini mesajda adıçəkilən qurumla dəqiqləşdirmək tövsiyə olunur", - deyə bildirilib.

YENİ MÜSAVAT
N 210 (8336) 23 noyabr 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# Qarabağın yenidən qurulmasına gənclərin cəlbi təklif edildi

**Günel Səfərova:** "Gənclər yenilikçi, innovativ təkliflər, ideyalar irəli sürərək..."

**Dövlət strukturlarında - qanunvericilik, özünüidarəetmə, icraedici, məhkəmə orqanlarında gənclərə yer verilməsi onlara göstərilən etimadın göstəricisidir. Azərbaycan gəncliyi döyüş meydanında da öz sözünü deməyi bacarır. 2020-ci ildə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələnən 44 günlük Vətən müharibəsində gənclər aparıcı qüvvə olaraq qələbəyə imza atdılar. Ali Baş Komandan, Prezident İlham Əliyevin Azərbaycan Gəncləri Günündə səsləndirdiyi fikirləri xatırlayaq: "Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və Müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi".**



Qarabağın yenidən qurulmasında, heç çübhəsiz ki, Azərbaycan gənclərinin rolu böyük olacaq. Bu prosesdə gənclərin rolu ilə bağlı müxtəlif fikirlər var. Məsələn, millət vəkili Aqil Abbas bir neçə gün öncə qəzetimizə açıqlamasında tələbə inşaat dəstələrinin yaradılmasını təklif edib: "Bərpa və yenidənqurma prosesi başladıqda tələbə inşaat dəstələrinin yaradılması ilə bağlı təklif vermişdim. Müstəqillikdən öncəki illərdə belə dəstələr var idi. Yeri gəlmişkən, ilk dəfə Azərbaycanda yaranmışdı, sonra ittifaqın digər ölkələrində tətbiq edildi. Tələbələr tətil müddətində Qarabağda tikinti işlərində iştirak edə, yüksək maaş ala bilərlər. O maaşla bir müddət dolanmaq olar. 1000-1500 AZN maaş alsalar, ən azı kirayə pulunu ödəyə bilərlər. Məlumdur ki, Azərbaycanda tələbə yataqxanalarının vəziyyəti ürəkaçan deyil. Tikintidə çalışan tələbələrə imtiyaz verilməli, diplomu aldıqdan sonra Qarabağda işlə və evlə təmin olunmalıdırlar. Bu, tikintini sürətləndirmək üçün yaxşı yoldur".

**"Qarabağın azad edilməsində Azərbaycan gəncliyi əsas rol oynadı. Allah şəhidlərimizə rəhmət eləsin! Azərbaycan gəncliyi Qarabağ üçün öhdəsinə düşəndən də artıq işlər görüb".**

**Bu fikirləri isə "Yeni Müsavat"a Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Günel Səfərova deyib. G.Səfərova vurğulayıb ki, Azərbaycanda çox sayda gənclər təşkilatları, tələbə birlikləri var:** "Azərbaycan gəncləri həm könüllülük, həm də vətəndaş cəmiyyəti institutlarında kifayət qədər fəaldırlar. O cümlədən informasiya mübarizəsində, xarici ölkələrdə təmsilçilik və s. məsələlərdə gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Xüsusilə son bir ildə gənclər proseslərin aparıcı qüvvəsinə çevrilib. Qarabağın yenidən qurulması, Böyük Qayıdışla bağlı proseslərdə müxtəlif istiqamətlərdə gənclər kifayət qədər fəaldır. İlk növbədə icmaların Qarabağa köçürülməsi, yaşayışa uyğunlaşması, adaptasiya prosesinə dəstək olmaq üçün gənclərin potensialından istifadə etmək olar. Məlumdur ki, məcbur köçkünlər bir neçə dəfə yaşayış yerini dəyişdiyi üçün uyğunlaşmaq asan olmayacaq. Qarabağda yeni ictimai birliklər, qeyri-hökumət təşkilatları yaradıla bilər, gənclərin asudə vaxtının təşkilində elə gənclərin dəstək verməsi daha yaxşı olar. Çünki Azərbaycan kifayət qədər qüdrətli dövlətdir, iqtisadi cəhətdən inkişaf etmiş ölkədir. Qarabağın qurulması üçün çox böyük vəsaitə ehtiyac var. Hesab edirəm ki, prosesi özəl sektorla birgə dövlət idarə etsə, bu daha məqsədəuyğun olar. Gənclər Qarabağda daha çox innovativ layihələrin həyata keçirilməsinə, konseptual məsələlərin idarə olunmasına, idarəçilikdə gənclərin rolunun artırılmasına, sosial xidmətlərin gücləndirilməsi istiqamətində fəaliyyət göstərsələr, daha yaxşı olar. Tələbələr fiziki əmək tələb edən sahələrdən daha çox bu istiqamətlərdə çalışmalıdır. Gənclər yenilikçi, innovativ təkliflər, ideyalar irəli sürərək Qarabağın yenidənqurma və bərpası prosesində yaddaqalan rol oynaya bilərlər. Azərbaycan gəncliyi yeni mərhələdə ağıllı, vətənpərvər, gündəmlə ayaqlaşmağı bacaran gənclikdir. Əlbəttə ki, niyyətimiz bütün problemlərin həllini gənclərin üzərinə yükləmək deyil. Mən gəncliyin yeni formalaşmış yanaşmalarla işləməsinin tərəfdarıyam".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ

# Suriyadan qaytarılan vətəndaşlar potensial terrorçu ola bilərmi - rəy

**Deputat:** "Hüquq-mühafizə orqanları tərəfindən bu kimi hallara qarşı daim mübarizə aparılır və indiyə qədər bir sıra şəxslər ifşa edilib"

**Suriyadan 8 uşaq və 4 qadın Azərbaycana gətirilib. XİN-in məlumatına görə, Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli 2336 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"nın müvafiq müddəalarına uyğun olaraq 21 noyabr 2023-cü il tarixində Suriya Ərəb Respublikasının ərazisində yerləşən düşərgələrdə saxlanılan 8 nəfəri uşaq və 4 nəfəri qadın olmaqla, 12 nəfər Azərbaycan Respublikası vətəndaşının ölkəmizə repatriasiyası həyata keçirilib.**



İlk növbədə repatriantların yeri, şəxsiyyəti və Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyəti müəyyən edilib və daha sonra Türkiyə Respublikası ərazisinə keçidi təşkil olunub.

İraq və Suriyadan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Türkiyə Respublikasına ezam edilib, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub.

Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi tərəfindən müvafiq əlaqələndirmə işi aparılmaqla vətəndaşlarımız Azərbaycan Respublikasına qayıdış şəhadətnamələri və uçuş biletləri ilə təmin edilib. 21 noyabr 2023-cü ildə nümayəndə heyətinin müşayiəti ilə qeyd olunan vətəndaşların ölkəmizə repatriasiyası həyata keçirilib.

Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının hökuməti tərəfindən xarici ölkələrin ərazisində silahlı münaqişənin qurbanına çevrilmiş Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası üçün zəruri tədbirlərin görülməsi davam etdiriləcək.

Qeyd edək ki, 2010-2015-ci illərdə Azərbaycandan bir qrup insan İŞİD-in təsiri altına düşərək, ailəsi ilə birlikdə ora getmişdi. Onların bir çoxu orada öldürülüb. Bir qism kişilərin isə ailəsi başsız qalmışdı. Ötən illər ərzində bu vətəndaşlarımızın bir çoxu geri qaytarılıb.

Bəzi ekspertlər bildirir ki, geri qaytarılan azərbaycanlılarla bağlı ciddi işlər aparılmalıdır, çünki onların arasında beyni yuyulmuş şəxslər ola bilər ki, gələcəkdə potensial terrorçu kimi davrana bilərlər. Bu işləri kim görməlidir? Geri qayıdan insanlar hansı müddətdə nəzarətdə saxlanılmalıdır?

**Təhlükəsizlik məsələləri üzrə ekspert, deputat Arzu Nağıyev "Yeni Müsavat"a deyib ki, Suriyada vətəndaş müharibəsi başlayanda terrorçu təşkilatlar orada peyda olan zaman azərbaycanlılardan kiminsə ora gedib müharibəyə qoşulacağını əksəriyyət güman etmirdi:** "Həmin günlərdə Azərbaycan Qarabağ problemini həll etməmişdi. Azərbaycan vətəndaşını əsasən Qarabağın azad edilməsi düşündürürdü. Amma Suriyaya gedənlər də tapıldı. Cihad adı ilə yüzlərlə azərbaycanlı gedib terrorçu təşkilatlara qoşuldu. Hətta bəziləri ailələrini də özləri ilə apardılar, imkanlı ailələrdən də beləri var idi. Sonra bir qismi orada öldürüldü, ailələri başsız qaldı. Bura qayıdanlar isə həbs olundu və uzun müddətə azadlıqdan məhrum edildilər. O ki qaldı qayıdanların ölkədə hər hansı bir qeyri-qanuni addım atmalarına, belə halların qarşısı qətiyyətlə alınır. Dövlət Təhlükəsizliyi Xidməti əsas məramları, məqsədi qarşısıqlıq salmaq, terror həyata keçirmək olan qruplaşmalara qarşı daim fəaliyyətdədir. Azərbaycan regionda sülhün bərqərar olunması istiqamətində ciddi addımlar atır. Əsası bir neçə il bundan öncə qoyulan və bütün ölkələr üçün təhlükəyə çevrilən "İslam dövləti" (İŞİD) terror qruplaşması yenidən fəallaşmağa başlayır. Deməli, bir sıra dövlətlərdə terror hadisələri törətmə ehtimalları artır. İŞİD-in ötən illərdə xüsusilə Paris və Türkiyədəki terror aktları dünya mətbuatının gündəmini zəbt etmişdi. Azərbaycandan da İŞİD sıralarına qoşulmaq üçün yüzlərlə insan Suriya və İraqa gedib. İstisna deyil ki, onları həvəsləndirən və İŞİD-lə əlaqələndirən hansısa qruplar gizli fəaliyyət göstərir. Hüquq-mühafizə orqanları tərəfindən bu kimi hallara qarşı daim mübarizə aparılır və indiyə kimi bir sıra şəxslər ifşa edilib. Bu mübarizə fonunda İŞİD-in digər ölkələr kimi Azərbaycanda da terror törədə bilməsi ehtimalı hamını düşündürür. Azərbaycandan da İŞİD-ə qoşulan, orada ölənlər və ya sağ qalanlar var. Eyni zamanda həbs olunanlar və olunmayanlar da var. Terror elə təzahürdür ki, bundan heç kim sığortalanmayıb. Ona görə də hesab edirəm ki, Dövlət Təhlükəsizlik Xidməti bu sahəyə çox ciddi nəzarət edir. Buradakı əməliyyat şəraitini nəzərə alırlar. Amma ayıq-sayıqlıq həmişə olmalıdır. Terror təşkilatları, xüsusilə İŞİD həddindən artıq qəddarlıqla anılır. Ona görə ayıq-sayıqlığı əldən verməmək olmaz. İŞİD üzvü olan və qaçıb gizlənənlər, yayınanlar, hələ ki sakit durub kənardan idarə edənlər bilsinlər ki, kifayət qədər materiallar var və əməliyyat şəraitinə nəzarət olunur. Azərbaycan dövlətinə, dövlətçiliyə, cənab Prezidentin apardığı siyasətə qarşı hər hansı bir atılacaq addımın qarşısı yüksək peşəkarlıqla alınacaq".

❑ Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 210 (8346) 23 noyabr 2023

**Ölkədə uşaqpulu məsələsi uzun illərdir müzakirə olunur. Ancaq bununla bağlı konkret bir nəticə yoxdur. Hətta bu yaxınlarda belə bir rəsmi məlumat da açıqlandı ki, ölkədə demoqrafik vəziyyətdə geriləmələr var. Bunun əsas səbəbinin ailələrin maddi durumu ilə əlaqəli olduğu bildirilir.**

# Deputatdan ikidən artıq uşaqlı ailələrə güzəşt təklifi - reaksiyalar

## İqtisadçı və sosioloqdan rəy: “3-cü uşaqdan sonra güzəştli müavinətlərin verilməsi daha məqsədəuyğundur”



**Deputat Siyavuş Novruzov** parlamentin son iclasında 2 uşaqdan sonra ailələrə güzəşt nəzərdə tutulmasını təklif edib. O deyib ki, ailəyə yalnız 5 uşaqdan sonra müəyyən güzəştlərin verilməsi yaxşı deyil: “2 uşaqdan sonra təminat nəzərdə tutulsa, daha yaxşı olar. Üçüncü məsələ bizdə 10 uşaq olana "Qəhrəman ana" statusu verilirdi. Hesab edirəm artıq 7-8 uşağı olana "Qəhrəman ana" statusu verilsə yaxşı olar. Digər məsələ sosial müavinətlərin verilməsi ilə bağlıdır. Millət vəkillərinə onların rayonlarından kimə sosial müavinət verilir, onun siyahısı verilsə, daha yaxşı olar. Çünki bizə kifayət qədər müraciətlər olur. Bu siyahı heç olmasa rayon üzrə verilsə, bu məsələlərin daha şəffaf olmasına şərait yaradar”.

Məlum olduğu kimi son illər ölkədə azuşaqlı ailələrin sayı artır. İndi ailələr əsasən 1, maksimum 2 uşağa üstünlük verir. Əgər ötən əsrin 80-ci illərində 1 uşaqlı ailələrin sayı 15 faiz ətrafında olurdusa, hazırda bu rəqəm azı 50 faizdir. Beləliklə, 2 uşaqlı ailələrin çəkisi azı 2 dəfə artıb. Bir sıra mütəxəssislərin fikrincə, buna səbəb son dövrlərdə sosial durumun çətinləşməsi, qlobal bahalaşmadır. Bütün bunların fonunda da ailələr 2-dən artıq uşaq dünyaya gətirmir, hətta gənclər evlənməkdən də çəkinirlər.

Qeyd edək ki, Azərbaycanda artıq 3 deyil, 5 və daha çox uşaqlı analar çoxuşaqlı analar sayılır. Bu barədə Nazirlər Kabinetinin “Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması, eləcə də saxlanılması Qaydaları”nda etdiyi dəyişiklikdə əksini tapıb.

Onu da xatırladaq ki, Azərbaycanda hər doğulan uşağa görə dövlət tərəfindən müəyyən müavinət verilir. Belə ki, 2019-cu ilin aprelin 1-dən uşağın anadan olmasına görə müavinət 200 manat məbləğində müəyyənləşdirilib. 5-dən çox uşaq dünyaya gətirib tərbiyə edən qadınlara isə uşaqların sağ olması şərti ilə və axırıncı uşaq 1 yaşına çatdıqda hər uşağa 55 manat müavinət verilir.

**Bəs dünya ölkələrində necədir?**

Bir çox ölkələrdə üç və daha artıq uşağı olan ailələrə müəyyən güzəşt və imtiyazlar tanınır. Bu cür proqramlar isə doğumu stimullaşdırmaq və çoxuşaqlı ailələrə dövlət dəstəyi göstərmək üçün mövcuddur.

Məsələn, ötən il Rusiyada üç uşağı olan ailə kommunal ödənişlərdən azad olunacağı açıqlanmışdı. Rusiyada 1-ci uşağa AZN ekvivalenti ilə hesablasaq, 8 min manat, 2-ci və sonrakı uşaqların hər birinə 13 min manat, 3-cü uşaqdan sonra ev və ya torpaq sahəsi, digər sosial imtiyazlar verilir. Həmçinin uşaqların 6 yaşa qədər tibbi xidməti və dərmanı pulsuz həyata keçirilir.

Türkiyədə ilk uşağa 200, 2-ci uşağa 400 və 3-cü uşağa isə 600 lirə aylıq müavinət ödənilir.

Gürcüstanda aztəminatlı və çox uşaqlı ailələrə hökumət ilin 6 ayı olmaqla hər ay 600 lari yardım verir.

Ukraynada 1-ci uşağa görə 1800, 2-ci uşağa görə 3750, digər uşaqlara görə isə 7140 dollar ödənilir. Eyni zamanda 1-ci uşağa görə 12 ay, 2-ciyə görə 24 ay, digər uşaqlara görə isə dövlət 36 ay müddətində 715 dollar məbləğində müavinət ödənilir.

Belarusda 4 uşaqlı ailələrə dövlət pulsuz mənzil verir. Qazaxıstanda 1-ci, 2-ci və 3-cü uşağa görə 300 dollar, 4-cü uşaqdan başlayaraq 515 dollar birdəfəlik müavinət verilir. 3 və daha çox uşağı olan ailələrə bir sıra başqa güzəştlər tanınır.

Fransada çoxuşaqlı ailələrə yardım məqsədilə “Böyük ailə” proqramı fəaliyyət göstərir. 1921-ci ildən qüvvədə olan bu proqram 3 və daha çox uşağı olan ailələrə bir sıra güzəşt və imtiyazlar tanıyır. Hər növbəti uşağa vergi faizini azaldır. 4 uşağı olan ailələr demək olar ki, vergi ödəmir. Hər 3-cü və sonrakı uşaqlara görə dövlət 180 avro müavinət ödəyir.

Almaniyada da çoxuşaqlı ailələrə geniş bonuslar təqdim olunur. Hər bir Almaniya vətəndaşı yeni doğulan uşağa görə 154 avro alır. Hər növbəti uşağa görə bu rəqəm 179 avro artırılır. Avstriyada hər uşağa görə verilən müavinət 160 avrodur.

İsveçdə də çoxuşaqlı ailələrə xüsusi dövlət dəstəyi var. Məsələn, 3 və daha çox uşağı olan ailələrə xüsusi ərzaq talonları verilir, kirayə evdə yaşayırlarsa, mənzilin haqqı bələdiyyə tərəfindən ödənilir və təhsil haqqında güzəştlər təklif olunur.

Finlandiyada çoxuşaqlı ailələrə heç bir imtiyaz təklif olunmur. Amma hər yeni doğulan uşağa imtiyaz paketi verilir. Həmin paket uşağın 1 yaşına qədər olan dövrdə bütün lazımi xidmət və vəsaitlərlə təmin edir.

Polşada çoxuşaqlı ailələrə dəstəklə bağlı məhdudiyyətlər var. Belə ki, bu ölkədə çoxuşaqlılıq müavinətini adambaşına aylıq gəlirin 125 dollardan az olması şərti ilə verirlər. Amma ailədə şikəst uşaq, yaxud işləməyən valideyn varsa, müavinətin məbləği 2 dəfə artırılır.

Çexiyada isə çoxuşaqlı ailələrin müavinətinin məbləği az olsa da, qadınların hər doğulan uşağa görə pensiya yaşları 1 il azaldılır.

Bəs millət vəkili Siyavuş Novruzovun səsləndirdiyi məsələ öz həllini tapa bilərmi?

**Mövzu ilə bağlı iqtisadçı ekspert Eyyub Kərimli “Yeni Müsavat”a danışıb:** “Ümumiyyətlə, hesab edirəm ki, hər bir sosial siyasətin arxasında həm də iqtisadi baza durmalı, formalaşdırılmalıdır. Bu baxımdan, büdcə gəlirlərini, buradan sosial sahəyə ayrılan xərcləri nəzərə almalıyıq. Millət vəkilinin səsləndirdiyi bu kimi təkliflərlə bağlı kompleksli, aktual araşdırmalar aparmalıyıq.

Məlum məsələdir ki, demoqrafik vəziyyət iqtisadi vəziyyətlə uzlaşmalıdır. Çünki əhalinin artımı həm də iqtisadiyyatın inkişafını təmin etməlidir. Bu baxımdan, bu məsələ geniş müzakirə, araşdırma tələb edir. Buna müxtəlif nazirliklərimiz, o cümlədən İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qoşulmalı və vahid bir iş aparılmalıdır.

Beləliklə, statistik göstəricilər onu göstərir ki, ölkəmizdə 2 deyil, 3-cü uşaqdan sonra güzəştli müavinətlərin verilməsi daha məqsədəuyğundur. Çünki bizdə ailələrin əksəriyyəti 2 uşaqlıdır".

**İqtisadçı ekspertin fikrincə, son vaxtlar azuşaqlı ailələrin artmasının səbəbi əsasən iqtisadi çətinliklər deyil:** “Bunun bir çox səbəbləri var. Azuşaqlı ailə hazırda dünyada da trenddir. Yəni ən inkişaf etmiş ölkələrdə də azuşaqlı ailələr trenddir. O deməkdeyil ki, orada iqtisadi inkişafı, bahalaşma ilə bağlıdır. İnsanlar daha rahat, komfortlu həyat tərzi keçirmək üçün uşaqların sayının az olmasına çalışır. Doğrudur, bu məsələdə iqtisadi çətinliklərin də təsirləri var. Amma əsas problem bu deyil”.

**Sosioloq Əhməd Qəşəmoğlu da qeyd etdi ki, azuşaqlı ailələrin sayının artması təkcə iqtisadi amillərlə bağlı deyil:** “Mən hər zaman bildirmişəm ki, ailələrdə 3 uşağın olmasına çalışmaq lazımdır. Bir də onu unutmaq olmaz ki, uşaqlar gələcəkdə böyüyüb, təkcə valideynləri üçün deyil, həm də ölkəsi üçün işləyəcəklər. Ona görə də ölkədə hökmən 3 uşaqlı ailə modelinə nail olmaq lazımdır. Buna görə də 3-cü uşaqda mütləq güzəştli müavinətlər verilməlidir.

O ki qaldı azuşaqlı ailələrin son dövrlərdə artmasına, əlbəttə ki, bunu təkcə iqtisadi vəziyyətlə əlaqələndirmək doğru olmazdı. Çünki əgər bu iqtisadi vəziyyətdən asılı olsaydı bir əsr bundan əvvəl, ölkədə ciddi iqtisadi çətinliklərin olduğu bir vaxtda çoxuşaqlı ailələrin sayı çox olmazdı. Bunun başqa səbəbləri, amilləri var və bütün bunlar aidiyyəti orqanlar tərəfindən müzakirə olunmalıdır".

**Sosioloq millət vəkilinin “7-8 uşağı olan anaya "Qəhrəman ana" statusu verilsin” təklifinə də münasibət bildirib:** “Bir əsr əvvəl idi ki, 10 uşaqlı anaya "Qəhrəman ana" statusu verilirdi. İndi vəziyyət dəyişib, artıq 7-8 uşaqlı anaya "Qəhrəman ana" statusu verilməlidir. Bu baxımdan, millət vəkili Siyavuş Novruzovun bu fikrini dəstəkləyirəm”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**



## Əmək pensiyasının yenidən hesablanması qaydası müəyyənləşib

**Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydasında dəyişiklik edilib. APA-nın xəbərinə görə, Nazirlər Kabineti bununla bağlı qərar qəbul edib.**

Qərara əsasən, əmək pensiyasının qanunda müəyyən olunmuş minimum məbləğə çatdırılması, indeksləşdirilməsi və maddi yardımın (əvvəlki ildə ödənilmişdirsə) əmək pensiyasının tərkibinə daxil edilməsi ilə bağlı hesablamaların eyni vaxtda aparılması zərurəti yaranarsa, həmin hesablamalar aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

- əmək pensiyası minimum məbləğə çatdırılır;
- maddi yardımın (əvvəlki ildə ödənilmişdirsə) bir aya düşən hissəsi əmək pensiyasının tərkibinə daxil edilir;
- əmək pensiyası indeksləşdirilir.

Əmək pensiyasının yenidən hesablanması yenidən hesablanmağa hüququn yarandığı tarixdən aparılır və bu zaman keçmiş dövr üzrə əskik və artıq ödəmələr müəyyən edildikdə, həmin ödəmələr əvəzləşdirilir.

**Qərarla təsdiq edilmiş qaydaya əsasən:**

- “Əmək pensiyaları haqqında” Qanuna edilmiş dəyişikliyə uyğun olaraq ailə başçısının itirilməsi növü üzrə pensiya təyinatı ilə əlaqədar yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəsinin ailə tərkibi haqqında arayışının təqdim edilməsi tələbi aradan qaldırılır;
- Kolxozlarda əmək fəaliyyəti dövrünün staja hesablanması üçün “müəyyən edilmiş əmək iştirakı minimumunun yerinə yetirilməsi barədə qeydin olması şərti” ləğv edilir, staj kolxozçunun əmək kitabçası əsasında daha asan qaydada müəyyən olunacaq;
- “Əmək pensiyaları haqqında” Qanuna əsasən, 2017-ci il 1 iyul tarixinədək 20 ildən yuxarı hərbi xidmətin hər ili üçün müvafiq təminat xərcliyinin 3 faizi, həmin tarixdən sonra isə 2 faizi (Müdafiə Nazirliyi üzrə - 3 faizi) hesablanması şərti həmin dəyişikliyi ehtiva edən Qanunun qüvvəyə mindiyi 2017-ci il 1 iyul tarixi əsas Qanunun mətnində görünmədiyindən aydınlıq baxımından Qaydalara əlavə olunur;
- Vətəndaşa keçmiş dövr üzrə əskik və artıq pensiya ödənildiyi aşkar olunduqda həmin məbləğlərin əvəzləşdirilməsi barədə norma əlavə olunur.

YENİ MÜSAVAT
N 210 (8346) 23 noyabr 2023

**Azərbaycanda pambıq yığımında ciddi azalma var. Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən, bu il noyabrın 1-dək 72,1 min hektar sahədən 168,9 min ton (15,1 faiz az) pambıq yığılıb. Hər hektardan orta məhsuldarlıq 23,4 sentner təşkil edib. Ötən ilin eyni dövründə 80 min ha sahədən 199 min ton pambıq yığılıb, orta məhsuldarlıq 24,9 sentner olub. Bu isə o deməkdir ki, cari ildə ötən ilkindən 8,9 faiz az sahədən məhsul toplanıb.**

# Pambıq yığımında kəskin azalma - naməlum xəstəlik, yağış...

## Əfras Əsgərov: "Yalnız bu il üçün dövlət pambıqçılara dəstəyini 10 qəpik artırsa, fermerlər zərərdən çıxar"



Qeyd edək ki, bu il ölkə üzrə 94,2 min hektar sahədə pambıq əkilmişdi. Ötən il isə əkin sahələri 100,4 min hektar idi. Əkin sahələrinin azalmasına rəğmən məhsuldarlığın artırılması hesabına pambıq istehsalının ötən ilkindən daha yüksək olacağı proqnozlaşdırılırdı. Lakin proqnozlar özünü doğrultmadı. Bunun səbəblərini açıqlayan **Sabirabadlı fermer Əfras Əsgərovun "Yeni Müsavat"a dediyinə görə, burada iki amil mühüm rol oynayıb**: "Birinci amil avqust ayında pambığı naməlum xəstəliyin vurmasıdır. Mən 30 ildir pambıq əkirəm, bu xəstəliyi ilk dəfədir müşahidə edirəm. Avqustun 23-də sahələrimi bir-bir gəzmişəm, hər hansı xəstəlik görməmişəm, nə olubsa ondan sonra olub. Bu xəstəlik məhsuldarlığı 1-2 sentner aşağı saldı. Daha bir səbəb sentyabrda yağan davamlı yağışlar oldu. Yağışlar məhsuldarlığın daha 3-4 sentner düşməsinə gətirib çıxarıb. Bu iki amil üzündən bu il məhsuldarlıq hər hektardan 6 sentner aşağıdır. Deyim ki, bu, çox böyük itkidir. Mən məsələn, avqustun 23-də desəydilər, 500 ton məhsulun pulunu götür, sahədən çıx, razılaşmazdım, çünki daha yüksək məhsuldarlıq gözləyirdim. İndi amma 400 tona çata bilsəm, sevinərəm".

**Fermer deyir ki, nə xəstəlik, nə də yağışların vurduğu zərər aqrar sığorta hadisəsi deyil:** "Aqrar sığorta sel, daşqın kimi fəlakətlərdən sığortalayır. Xəstəlik, sel olmadan yağışların vurduğu zərər qarşılanmır, dünyanın heç bir yerində qarşılanmır. Xəstəliklə bağlı günah bizim özümüzdədir - dövlət qurumları, aqronomlar, pambıqçıların özləri o xəstəliyi görməliydik".

**Ə.Əsgərovun sözlərinə görə, problem ən çox az sahədə pambıq əkənlərə zərər vurur:** "Mənim kimi çox əkənlər birtəhər vəziyyətdən çıxırıq. Amma 4-5, 2-3 hektar əkənlərin çoxu zavodlara borclu qalır. Biz pambıqçılar bu vəziyyətdə dövlətdən dəstək gözləyirik. Əlbəttə, anlayırıq ki, dövlətin azad olunan ərazilərin bərpası kimi böyük yükü var. Amma fermerləri də zərərdə qoymaq olmaz. Dövlət pambığın hər kiloqramına görə 19 qəpik subsidiya verir. Mümkün olarsa, fermerlərin zərərə düşməməsi üçün yalnız bu il üçün subsidiya həcmini 10 qəpik artırsınlar. Ümumi istehsal həcmini nəzərə alsaq, bu, dövlət üçün 2-2,5 milyon manat xərc yaradacaq, amma minlərlə fermeri zərərdən çıxaracaq".

**Müsahibimiz qeyd edir ki, 2016-cı ildən bəri pambıqçılıq gəlirli sahəyə çevrilib:** "Əvvəllər pambığı zorla əkdirirdilərsə, indi camaatı saxlamaq olmur, hamı pambıq əkmək istəyir. Zavodlar toxumu verir, becərmə xərcini ödəyir, texnika verir, dəyərini axırda məhsulun pulundan çıxır. İstehsalçı məhsulu verir, qazancını cibinə qoyub gedir evinə. Məhsuldarlıq da artırdı: Türkiyədə orta məhsuldarlıq 40-45 sentnerdir, biz yaxın 3-4 ildə bu həddə çatmağı gözləyirik. Pambıqçılar yaxşı qazanırlar, bu illər ərzində pambıqla varlanıb iş adamı olanlar o qədərdir ki... Bu gün pambıqçılıqda 400 minə yaxın insan qazanc əldə edir, yüksək əmək tutumlu sahədir. Buna görə də dövlətin də marağındadır ki, pambıqçılıq inkişaf etsin. Digər tərəfdən, pambıq taxılla növbəli əkilir, onu ləğv etsək, taxılçılıqda da məhsuldarlıq kəskin düşər aşağı".

**Ə.Əsgərovun verdiyi məlumata görə, hazırda da pambıq yığımı davam edir:** "Hər hektardan orta hesabla 25-26 sentner olacaq. Ümumilikdə ölkə üzrə 240-250 min ton məhsul əldə edə biləcik".

Qeyd edək ki, müstəqillik illərində kəskin azalan pambıq istehsalına diqqət 2015-ci ildə neft qiymətlərinin kəskin düşməsi nəticəsində gəlirlərin azalmasından sonra yetirilməyə başlanıb. 2016-cı ildən etibarən toplanan pambığa görə dövlət tərəfindən dəstək ödənişi təyin edilib. 2016-cı ildə 89 min 442 ton olan pambıq istehsalı 2017-ci ildə 207 min 525 tona, 2018-ci ildə 233 min 592 tona, 2019-cu ildə 295 min 279 tona, 2020-ci ildə 336 min tona çatdırılıb. Pambıq əkinlərinin sahəsi qeyd olunan illərdə 51,4 min ha, 136,4 min ha, 132,5 min ha, 100,1 min ha təşkil edib. Bu zaman orta məhsuldarlıq 2016-cı ildə 17,3 sentnerdən 2017-ci ildə 15,3 sentnerə düşsə də, 2018-ci il ildən artmağa başlayaraq 2020-ci ildə 33,6 sentnerə çatıb. Göründüyü kimi, məhsuldarlığın artırılması istiqamətində nəzərəçarpacaq irəliləyiş vardı: 2017-ci illə müqayisədə 2020-ci ildə əkin sahələri 36 min ha azalsa da, istehsal həcmində 72 faizə yaxın artıma nail olunmuşdu.

2017-ci ildə təsdiqlənən "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın 6.3-cü bəndində sənədin icrası nəticəsində 2022-ci ildə xam pambıq istehsalının 500 min tona çatdırılması hədəflənirdi. Lakin 2021-ci ildə istehsal 287 min 41 tona, məhsuldarlıq isə 28,5 sentnerə düşüb. Rəsmilər istehsaldakı azalmanın iqlim şərtlərindən qaynaqlandığını bildiriblər. Belə ki, 2021-ci ildə ölkədə quraqlıq və yağıntıların qeyri-bərabər paylanması nəticəsində pambıq sahələrinin vaxtında suvarılmasını təmin etmək mümkün olmayıb. Xüsusilə pambıq istehsalında öndə gedən rayonlarda suvarmanın müasir metodlarından istifadə olunmaması, sentyabrda - yığım ərəfəsində güclü yağışların yağması məhsuldarlığı kəskin azağı salıb.

Azərbaycanda 2022-ci ildə pambıq əkinləri artırılaraq 104,3 min hektara çatdırılıb. Dövlətin hər 1 ton məhsula görə verdiyi subsidiya 100 manatdan 170 manata qaldırılıb. Eyni zamanda ötən il yığım ərəfəsində xam pambığın alış qiyməti iki dəfə 50 manat, ümumilikdə 100 manat artırılıb. Nəticədə emal müəssisələri istehsalçılara xam pambığın birinci növü üçün 1 tona 800 manat, 2-ci növ üçün 780 manat, 3-cü növ üçün 740 manat, 4-cü növ üçün 700 manat ödəyiblər. Kənd Təsərrüfatı Nazirliyinin hesablamalarına əsasən xam pambığın alış qiymətinin hər tona görə əlavə 100 manat qaldırılması 2022-ci ildə pambıq istehsalı ilə məşğul olan fermerlərin 30 milyon manata yaxın əlavə gəlir əldə etməsinə imkan verəcəkdi. Bu isə o deməkdir ki, ötən il pambıq istehsalı həcminə dair gözləntilər 300 min ton civarında idi. Rəsmi statistikadan aydın olur ki, 2022-ci ildə faktiki istehsal 321,8 min ton (2021-ci ildəkindən 12,1 faiz çox) təşkil edib.

Yuxarıda da qeyd etdik ki, pambıq ixracyönümlü məhsul olduğuna görə dövlət onun istehsalını subsidiyalaşdırır, ixracı isə stimullaşdırılır. Rəsmi statistikadan aydın olur ki, 2020-ci ildə Azərbaycandan xaricə133 milyon 260,32 min dollarlıq 100 min 466,82 ton, 2021-ci ildə 210 milyon 919,04 min dollarlıq 126 min 997,96 ton, 2022-ci ildə isə 174,5 milyon dollar dəyərində 77,6 min ton pambıq lifi ixrac olunub. Pambıqdan hazır məhsul istehsalı zəncirində ikinci həlqə olan pambıq iplik ixracı isə 2020-ci ildə 18 milyon 951.27 min dollar dəyərlə 9 040.91 ton, 2021-ci ildə 58 milyon 115.09 min dollar dəyərlə 18 429.01 ton 2022-ci ildə isə 33,1 milyon dollar dəyərlə 8,6 min ton təşkil edib. Göründüyü kimi, 2022-ci ildə pambıq lifi ixracında illik azalma həcm ifadəsində 39 faiz, dəyər ifadəsində isə 17,3 faiz, pambıq iplik ixracında isə müvafiq olaraq 54 faiz və 43 faiz olub.

Pambıq lifi və iplik ixracındakı azalma bu il də davam edir. Belə ki, cari ilin yanvar-oktyabr aylarında Azərbaycandan 98 milyon 461 min ABŞ dolları dəyərində 54 min 634 ton pambıq lifi, 27 milyon 708 min dollar dəyərində 9 min 755 ton pambıq iplik ixrac edilib. Ötən ilin eyni dövründə pambıq lifi ixracı 153 milyon 834 min dollar dəyərlə 66 min 112 ton, pambıq iplik ixracı isə 30 milyon dollar dəyərlə 7,5 min ton təşkil etmişdi. Dövlət Gömrük Komitəsinin məlumatı əsasında apardığımız hesablamaya əsasən, pambıq lifi ixracı illik müqayisədə dəyər ifadəsində 36 faiz, çəki ifadəsində isə 17,4 faiz, pambıq iplik ixracı dəyər baxımından 7,6 faiz azalıb, çəki baxımından isə 30,6 faiz artıb.

Bu rəqəmlər göstərir ki, qlobal bazarlardakı qiymət azalması Azərbaycanın pambıq ixracından gəlirlərini kəskin azaldıb. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin məlumatına görə, dünya üzrə pambıq balansına əsasən, 2023/24-cü məhsul ilində pambıq istehsalının 2022/23-cü məhsul ili ilə müqayisədə 2.8 faiz azalaraq 24.7 milyon ton olacağı proqnozlaşdırılır.

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**



# Əhali ötən ay geyimə 1 mlrd. manata yaxın pul xərcləyib

**2023-cü ilin yanvar-oktyabr aylarında Azərbaycanda pərakəndə ticarət məntəqələrində toxuculuq məhsulları, geyim və ayaqqabılara 6 milyard 448 milyon manat vəsait xərclənib.**

"APA-Economics"in Dövlət Statistika Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 13.6% və ya 772 milyon manat çoxdur.

Qeyd edək ki, cari ilin oktyabr ayında pərakəndə ticarət məntəqələrində toxuculuq məhsulları, geyim və ayaqqabılara xərclənən vəsaitin həcmi isə 965.1 milyon manata bərabər olub.

Xatırladaq ki, hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 14%-i toxuculuq məhsullarına, geyim və ayaqqabıların alınmasına sərf olunub.

# Boşanma qərarına gətirən amillər öyrənilib - ilginc rəylər

## Boşanma qərarının verilməsini legitim edən amillər arasında ən yüksək faiz göstəricisi ilə (51,6%) ailədə narkomaniya və alkoqolizm problemi göstərilir

**Sosial Tədqiqatlar Mərkəzi son dövrlər vaxtaşırı ictimai müzakirə gündəminə çevrilən boşanma mövzusunda bir sıra məsələlər - boşanma qərarına gətirən hallar, ailənin möhkəmliyini təmin edən amillər və digər məsələlər ətrafında əhalinin mövqeyini rəy sorğusu əsasında öyrənib.**

Mərkəzdən APA-ya verilən xəbərə görə, boşanmanı legitim edən amillər kimi, məhz bu səbəblərə görə boşanma baş verdiyi təqdirdə ictimai qınağın nisbətən az olacağı hallar nəzərdə tutulub. Respondentlərə bu istiqamətdə müxtəlif amillər təqdim olunmaqla, ən çox üç cavab variantını seçmək təklif edilib.

Boşanma qərarının verilməsini legitim edən amillər arasında ən yüksək faiz göstəricisi ilə (51,6%) ailədə narkomaniya və alkoqolizm problemi göstərilib. İkinci amil kimi isə ailədaxili şiddət, zorakılıq problemi (27,3%) qeyd olunub. Cəmiyyətdə məhz deviant hesab olunan davranışların, yəni "ağır" səbəblərin boşanma qərarını legitimləşdirən hallar kimi ən çox seçilməsi boşanma statistikasına baxmayaraq, ailə münasibətlərinin insanlar üçün olduqca əhəmiyyətli olması ilə əlaqəlidir. Növbəti pillələrdə xarakter uyğunsuzluğu (16,4%) və nikahdankənar münasibət (16,4%) cavabları yer alıb.




Demoqrafik göstəricilərə görə bölgüdə bir sıra əhəmiyyətli fərqlər üzə çıxıb. Boşanmanı legitimləşdirən hal kimi ailədaxili şiddət və zorakılığı göstərənlər arasında qadınlar kişilərdən daha çoxdur. Belə ki, qadınların 63%-i, kişilərin 27%-i belə cavab verib. Bu zorakılığa həssaslıqda ciddi gender fərqlərinin olmasını nümayiş etdirir. Narkomaniya və alkoqolizmə münasibətdə isə gender fərqləri aşkar olunmur, yəni bu sosial problemlərə qadınlar və kişilər eyni dərəcədə neqativ münasibət bəsləyirlər. Digər mühüm məqam ailədaxili şiddətin qavranılmasında yaş fərqlərinin olmasıdır. Belə ki, bu amilə həssas yanaşanlar daha çox cavan nəslə aid respondentlərdir. Yaşı 35-ə qədər olanların 34%-i, yaşı 55-dən çox olanların yalnız 20%-i bu cavabı seçib. Yenə də müqayisə üçün qeyd edə bilərik ki, narkomaniya və alkolqolizmə həssaslıqda yaş qrupları arasında statistik əhəmiyyətli fərq qeydə alınmayıb.

Cavabların ümumi və demoqrafik bölgülərə əsasən təhlili müasir dövrdə ailənin psixoemosional funksiyasının getdikcə daha çox önəm kəsb etməsi, deviant davranışlar (narkomaniya/alkoqolizm), xüsusilə ailədaxili şiddətə getdikcə daha dözümsüz münasibətin formalaşdığını göstərir.

Qeyd edək ki, sorğular 2023-cü il ərzində telefonla müsahibə formasında keçirilib və 18 yaşından yuxarı 384 respondent iştirak edib. Sorğu 12 iqtisadi rayonu əhatə edib. Seçmə çərçivəsi ölkə üzrə əhalinin paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub.

Bu məqsədlə sözügedən inzibati rayon və şəhərlərə aid telefon nömrələri müvafiq məlumat bazasından xüsusi proqram vasitəsilə sistemli üsulla seçilərək zənglər olunub. Sahə işinə başlamamışdan əvvəl intervüyerlər təlimatlandırılıb. Respondentlərə sorğunun könüllü iştirak əsasında aparıldığı və məlumatların yalnız ümumiləşdirilmiş qaydada istifadə olunacağı barədə zəruri məlumatlar çatdırılıb. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.

# Azərkosmos Laçında peyk internet platforması quraşdırıb

**Azərkosmos Laçında "Azconnexus" platforması üzərindən internet xidmətlərini təmin etmək məqsədilə ilk KA diapazonlu anten quraşdırıb.**




Bu barədə "APA-Economics" Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə istinadən xəbər verir.

Məqsəd dağlıq relyefə malik olan Laçın rayonu ərazisində "Azconnexus" peyk interneti sayəsində müasir rəqəmsal xidmətlərə əlçatanlığı təmin etmək və telekommunikasiya sahəsini inkişaf etdirməkdir.

Belə ki, ənənəvi peyk tezlik diapazonlarından daha yüksək ötürmə qabiliyyətinə malik olan KA diapazonu çox kiçik ölçülü antenlər üçün əlverişli əhatə dairəsi yaradır. Bu da internet xidməti provayderləri və telekommunikasiya operatorlarına uçqar və dağlıq ərazilərdə öz şəbəkələrini genişləndirməyə imkan verəcək.

Qeyd edək ki, 2021-ci ildən fəaliyyətə başlayan Azərkosmosun "Azconnexus" platforması fasiləsiz, təhlükəsiz, yüksəksürətli və keyfiyyətli internet xidməti təqdim edir. "Azconnexus" peyk interneti dövlət müəssisələrində, dənizdə, quruda, dəmir yollarında və digər nəqliyyat xətlərində, ucqar ərazilərdəki iş və məlumat mərkəzlərində, yəni kifayət qədər internet əhatəsi olmayan ərazilərdəki istifadəçilər üçün əlçatandır. Bu platforma istifadəçilərə peyk interneti vasitəsilə video, audio və data daxil olmaqla müxtəlif trafik növləri təqdim edir.

# SN qripin gec sağalmasına aydınlıq gətirib



**Səhiyyə Nazirliyi qripin gec sağalmasına aydınlıq gətirib.**

APA xəbər verir ki, Səhiyyə Nazirliyinin mütəxəssis eksperti, terapevt Zakir Quliyev qrip və soyuqdəymə arasındakı fərqə də diqqət çəkib. O bildirib ki, qrip "influenza" virusunun təsiri ilə ortaya çıxdığı halda, soyuqdəymə olduğumuz mühitdə soyuq-isti balansının pozulması ilə yaranır. Simptomlarına gəlincə isə həkimin sözlərinə görə, onlar arasında o qədər də fərq olmur.

Gec sağalma ilə bağlı şikayətlərə münasibət bildirən həkim deyib ki, bu, çox vaxt düzgün olmayan dərman qəbulu zamanı ortaya çıxır və uyğun olmayan dərman qəbulu orqanizmin sağalmasını gecikdirir.

Həkim qrip zamanı antibiotik istifadəsinə də münasibət bildirib. O deyib ki, antibiotik, xəstəliyi yaradan səbəb bakteriya olduğu zaman yazılır.

Orqanizmin gücləndirilməsi barədə danışan həkim bu məsələdə diqqət etməli olduğumuz məqamları xatırladıb:

"Bunun üçün stressi düzgün idarə etmək, yuxu rejiminə fikir vermək, mövsümə uyğun qidalardan istifadə etməyə diqqət göstərməliyik".

# Antibiotikləri belə istifadə edin



**"Antibiotiklər müəyyən zaman aralıqları ilə gün ərzində bir neçə dəfə və hətta bəzən 2-3 gündən bir təyin olunur".**

Musavat.com-un xəbərinə görə, bu barədə Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Zakir Quliyev məlumat verib.

Onun sözlərinə görə, antibiotikləri eyni saatda və düzgün aralıqlarla istifadə etmək lazımdır:

"Əks halda, müalicənin effekti nəticə etibarilə aşağı düşür. Bu da xəstəliyin ağırlaşmasına gətirib çıxara bilər".

YENİ MÜSAVAT
Son səhifə
N 210 (8346) 23 noyabr 2023

# Bunları bilirsinizmi?

* Alışqan Kibritdən öncə ixtira olunub.
* Delfinlər bir gözü açıq yatır.
* Əgər bir stəkan suya 80 dəqiqə qışqırsaq onda su qaynayar.
* Ağ Evdə çəngəl və qaşıqların sayı 13092 ədəddir.
* Dəniz ulduzunun beyni yoxdur.
* Dünyada ən populyar ad -Annadır, bu adı 100 milyona yaxın insan daşıyır.
* Bir ildə 31 557 600 saniyə var.
* Dalğıcların üzərindəki su qırmızı və sarı işığı filtrləyərək hər şeyin mavi tonda olmasını təmin edir . Süni bir işıq qaynağıyla dalmaq isə su altının gerçək rənglərini görmənizi təmin edə bilər.
* Almaniyada bir çox qocalar evinin önündə yaşlı vətəndaşların qaçıb getməsinin qarşısını almaq üçün saxta dayanacaqlar var.
* Fillər bellərindəki dəri qırışıqlıqlarını ağcaqanadları öldürmək üçün istifadə edirlər.
* Paraqvayda hər iki tərəfdə qeydə alınaraq qan bağışlamaq üçün duel etməkləri sərbəstdir.
* Bir qurtum dəniz suyunda milyonlarla bakteriya, yüz minlərlə bitki mənşəli plankton və on minlərlə heyvan planktonları mövcuddur.

Noyabr

# Nə yeyək ki, çox yaşayaq? - alimlərdən məsləhət



**Böyük Britaniyanın Milli Səhiyyə Xidməti sağlam qidalanma üçün "The Eatwell Guide" adlı bələdçi hazırlayıb. Bu bələdçi insanları düzgün qidalanmanın sağlamlıq faydaları haqqında məlumatlandırmaq məqsədi daşıyır. Təlimatlara əsasən, gündə beş porsiya meyvə və tərəvəz yemək, karbohidrat, şəkər, yağ və duz qəbulunu azaltmaq lazımdır. Bundan əlavə, mütəxəssislər kolbasa, sosis və şirin qazlı içkilərdən imtina edərək, su, qoz-fındıq və tam buğda məhsullarına üstünlük verməyi məsləhət görürlər.**

Alimlər bu tövsiyələrə əməl olunmasının insan ömrünün uzunluğuna və sağlamlığına necə təsir edəcəyini öyrənməyə çalışıblar. Bunun üçün onlar yemək vərdişləri haqqında danışan 467 354 ortayaşlı könüllünün iştirakı ilə araşdırma aparıblar. Elm adamları daha sonra subyektlərin sağlamlıq vəziyyəti haqqında məlumat toplayıblar. Sorğu bitəndən bir müddət sonra alimlər hansı iştirakçıların hansı yaşda öldüyünü qeyd ediblər.

Məlum olub ki, çoxlu emal olunmuş ət (kolbasa, sosis), unlu məmulatlar yeyən və tez-tez şəkərli qazlı içkilər içən insanlar daha sağlam pəhriz saxlayanlara nisbətən az yaşayırlar. Alimlər müəyyən ediblər ki, "The Eatwell Guide"nin tövsiyə etdiyi qoz-fındıq, tam buğda, meyvə və paxlalı yemək ömrü uzadır. Tədqiqatçılar deyirlər ki, yemək vərdişlərindəki kiçik müsbət dəyişikliklər belə (məsələn, şəkərin azaldılması) ömrün bir il uzadılmasına səbəb ola bilər. Onlar, həmçinin "The Eatwell Guide"ın bütün tələblərinə əməl edilən halda ömrünüzün səkkiz il uzanacağını iddia edirlər.

## Bayden Şükranlıq Günü münasibəti ilə hind quşlarını əfv etdi



**ABŞ prezidenti Co Bayden Şükranlıq Günü münasibətilə ənənəyə uyğun olaraq Ağ Evdə Azadlıq və Zınqrov adlı iki hind quşunu əfv edib. "Mən Azadlıq və Zınqrov quşlarını bağışlayıram! Yaxşı. Təbriklər, quşlar!" - deyə Birləşmiş Ştatların prezidenti qeyd edib. Qeyd olunur ki, hind quşları Vaşinqtona Minnesota ştatından gətirilib. Hind quşları ənənəyə uyğun olaraq mərasimdən əvvəlki gecəni dəbdəbəli oteldə keçiriblər.**

## Bir ildən çox partlamayan sabun köpüyü hazırlanıb

**Fransanın Lill Universitetinin fizikləri otaq temperaturunda bir il ərzində partlamayan və formasını saxlaya bilən sabun köpüyü hazırlayıblar.**

Alimlər mayenin qravitasiya axınına müqavimət göstərən mikroqranulları suyun buxarlanmasını kompensasiya edən su və qliserin qarışığı ilə qarışdırıblar.

Yeni tapıntı barədə "Physical Review Fluids" jurnalı məlumat yayıb.

Fiziklər bildiriblər ki, qliserin hiqroskopik materialdır və ətraf mühitdəki suyu tez udur. Onlar iddia ediblər ki, qliserinli köpükərdə həyat əlamətləri müşahidə olunub.

# Bu, ürək-damar xəstəliklərinin əlaməti ola bilər



**Qəbizlik ürək-damar xəstəlikləri əlaməti ola bilər. Bu barədə Harvard Tibb Məktəbinin mütəxəssisləri bildirib. Alimlərin məlumatına görə, qeyd edilən problem ürək-damar xəstəliklərinin erkən əlaməti ola bilər. Bu halda gərginliyə görə qan təzyiqinin yüksəlməsi mümkündür. Həmin səbəbdən isə ürəyin işemik xəstəliyinin inkişafı riski artır. "Qəbizlik zamanı bağırsaqların mikrobiotasındakı dəyişikliklər ateroskleroza səbəb ola bilər. Bunun eyni zamanda qan təzyiqinin artımına və ürək-damar xəstəliklərinə yol açması mümkündür", - alimlər xəbərdarlıq ediblər.**

Mütəxəssislər həmçinin bildiriblər ki, qəbizlik vaxtı gərginlik qan təzyiqinin artımına səbəb olur. Bu isə ürək çatışmazlığına, aritmiyaya, aorta diseksiyasına yol açır.

## Bu qan qrupundan olan insanlar daha gözəl və cazibədar olur

**Alimlər müxtəlif qan qruplarına malik insanların xüsusiyyətlərini açıqlayıblar. Maraqlısı isə araşdırmalar zamanı qan qrupu ilə cazibədarlıq arasında əlaqənin olduğu məlum olub.**

Araşdırmanın nəticəsini "PlanetToday" portalı təqdim edib. Beləliklə, birinci qan qrupunun daşıyıcıları, alimlərin fikrincə, digərlərindən daha seksual və gözəldirlər, insanları ovsunlayan və hətta təsir edə bilən xüsusi cazibə və cəlbediciliyə malikdirlər. İkinci qan qrupu olan insanlar ən xarizmatik insanlardır, onlar istedadlı, çalışqandırlar, həmçinin şəfqətli olmağı, diqqəti cəlb etməyi və başqalarının qəlbini fəth etməyi bacarırlar. Üçüncü qan qrupunun daşıyıcıları ən həssas və mülayimdirlər, emosional zənginliyi ilə digər insanları heyrətləndirməyi bacarırlar.

Nəhayət, dördüncü qrupun sahibləri, göründüyü kimi, əsl romantiklərdir, məhəbbət və qayğı ilə səxavətlidirlər. Onlar həm də çox çalışqandırlar və istənilən məsuliyyətin öhdəsindən gələ bilirlər.

## Hindistanlı qadın 38 dişi ilə Ginnesin Rekordlar Kitabına düşüb



**Hindistan sakini dünyada ən çox dişə sahib qadın kimi qəbul edilərək, bu xüsusiyyəti sayəsində Ginnesin Rekordlar Kitabına düşüb.**

Dünya rekordunu 26 yaşlı hindistanlı Kalpana Balan qırıb. Onun 38 dişi var ki, bu da əksər insanlardan 6 diş daha çoxdur: onun alt çənəsində əlavə 4 diş, yuxarı çənəsində isə əlavə 2 diş var.

Qızın ağzında əlavə dişlər onun gənc yaşlarında çıxmağa başlayıb. Bu proses ona heç bir ağrı verməsə də, valideynləri qızının həkimə müraciət etməsini və əlavə dişlərin çıxartdırmasını tövsiyə ediblər. Lakin bu prosedurdan qorxduğu üçün qız dişlərini saxlamağa qərar verib.

Kalpananın sözlərinə görə, onun əlavə dişləri ağrımasa da, yemək yeyərkən onu narahat edirlər.

Öz növbəsində rekordçunun diş həkimləri qeyd edirlər ki, bu son hədd deyil, çünki qadın gələcəkdə daha iki diş çıxaracaq.

"Ginnesin Rekordlar Kitabına düşdüyüm üçün xoşbəxtəm. Bu, həyatımın ən əsas nailiyyətidir", - deyə Kalpana bildirib.

Kişilər arasında analoji rekord kanadalı Evano Melloneyə məxsusdur. Onun 41 dişi var.

Tibdə əlavə dişlərin olması hiperdentiya və ya poliodontiya adlanır. Statistikaya görə, dünya əhalisinin 3,8%-nin bir və ya bir neçə əlavə dişləri var. Hiperdentiyanın dəqiq səbəbi bilinməsə də, dişlərin formalaşması prosesinin pozulmasının nəticəsi olduğu hesab olunur.

## Motsartın sonuncu qəsri hərraca çıxarılıb



**Dünyaca məşhur bəstəkar Volfqanq Amadey Motsartın sonuncu qəsri hərraca çıxarılıb. Məlumata görə, qəsr 50 otaq və zirzəmidən ibarətdir. Bu qəsrdə bəstəkar əsrarəngiz "Rekviyem" əsərini tamamlayıb. Burada məşhur insanlar qonaq olublar. Onların arasında Napoleon Bonapart və Papa VI Pius da olub. Qeyd edək ki, belə zəngin keçmişi olan rezidensiya 13,1 milyon dollar dəyərində qiymətləndirilib.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
Sifariş: 3094
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.